1.qxd 04.03.2022 13:36 Page 1

Azərbaycan dünyaya günəş kimi doğacaq.
Heydər ƏLİYEV

Xalqın sözü haqq sözüdür

LERİK

№ 03-04 (6047-6048) 28 fevral 2022-ci il Qəzet 1937-ci ildən çıxır Qiyməti 40 qəpik

Azərbaycan Gəncləri yüksək ideyalara malikdir

Azərbaycan Gəncləri Günü münasibətilə Lerik rayonunda tədbir keçirildi. Tədbirdə rayon icra hakimiyyətinin, rayon gənclər və idman idarəsinin əməkdaşları, müharibə iştirakçıları, Gənclərin Karyera və İnkişaf Mərkəzinin (GKİM) regiondakı nümayəndəliklərindən qonaqlar, gənclər və ictimaiyyətin nümayəndələri iştirak edirdilər.

Tədbir iştirakçıları Şəhidlər abidə kompleksini və Heydər Əliyevin abidəsini ziyarət etdilər, abidə önünə gül dəstələri düzdülər. Tədbir rayon mədəniyyət mərkəzində davam etdirildi. Gənclərin rəsm və əl işlərindən ibarət sərgiyə baxış keçirildi.

Şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edildi. Lerik Rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Cəlil Baxşıyev, GKİM-in Lerik nümayəndəliyinin direktoru Ayfər Şakirli, rayon gənclər və idman idarəsinin rəisi Natiq İsaqov, Vətən müharibəsi iştirakçısı Allahşükür Babazadə çıxış edərək Azərbaycan Gəncləri Günü münasibətilə gəncləri təbrik etdilər.

Bildirildi ki, müstəqil Azərbaycan gənclərinin 1996-cı il fevralın 2-də keçirilmiş I Forumu ölkəmizin həyatında əlamətdar hadisə olmuşdur. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Forumdakı dərin məzmunlu nitqi gənclərin fəaliyyət proqramına çevrilmişdir. Prezident Heydər Əliyevin 1997-ci il fevralın 1-də imzaladığı Sərəncamla Gənclərin I Forumunun keçirildiyi tarix - 2 Fevral Azərbaycan Gəncləri Günü elan olundu.

Dövlət gənclər siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə yeni mərhələdə daha da inkişaf etdirilmişdir. Cənab Prezidentin gənclərlə bağlı verdiyi tövsiyələr, imzaladığı fərman və sərəncamlar ölkə rəhbərliyinin Azərbaycan gəncliyinə yüksək dəyər verdiyinin təzahürüdür. Həyata keçirilən məqsədyönlü siyasətin nəticəsi olaraq bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə, dövlətçilik məfkurəsinə, yüksək ideyalara malik gənclər formalaşır. Ölkəmizdə gənclər siyasətinin həyata keçirilməsi ardıcıl və məqsədyönlü xarakter daşıyır, bu sahədə bir çox dövlət proqramları uğurla icra olunur. Gəncliyin inkişafı cəmiyyətin, xalqın, millətin, ümumilikdə, Azərbaycanın tərəqqisi, yüksəlişi deməkdir. Gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı Lerik rayonunda da zəruri tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində saxlanılır.

Rayonun ictimai-siyasi həyatında fərqlənən bir qrup gənc müxtəlif nominasiyalar üzrə təltif edildi.

Qısa viktorinadan sonra tədbir bədii hissə ilə davam edirildi.

Xocalı soyqırımının 30-cu ildönümü yad edildi

Rayon Mədəniyyət Mərkəzində Xocalı soyqırımının 30-cu il dönümünə həsr olunmuş umumrayon anım tədbiri keçirildi. Tədbirdə Lerik Rayon İcra Hakimiyyəti Başçısının səlahiyyətlərini icra edən Cəlil Baxşıyev və Lənkəran Regional Mədəniyyət İdarəsinin rəisi Şahin Şahbazov çıxış etdilər. Soyqırım qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.Tədbirin bədii hissəsində Lənkəran şəhər Cəfər Cabbarlı adına 1 saylı Uşaq Musiqi Məktəbinin xor kollektivi geniş proqramla çıxış etdi.

Heydər Əliyev Mərkəzində rayon Təhsil Şöbəsi ilə birlikdə Xocalı soyqırımının 30-cu ildönümünə həsr olunmuş tarix dərsləri tədris olundu. Tarix dərslərində Lerik şəhər tam orta məktəblərinin yuxarı sinif şagirdləri iştirak etdilər.Tarix dərslərini Mərkəzin elmi işçisi Bahar Mürsəliyeva tədris etdi.Dərslərdə Azərbaycan xalqına qarşı ermənilərin törətdikləri Xocalı soyqırımının antibəşəri mahiyyəti, faciənin miqyası, qəddarlığı və amansızlığı şagirdlərin diqqətinə çatdırıldı.

Heydər Əliyev Mərkəzində rayon Gənclər və İdman İdarəsinin, rayon Təhsil Şöbəsinin birgə iştirakı ilə "Xocalı- bəşəriyyətə qarşı tarixi cinayət" adlı anım tədbiri keçirildi.Tədbir iştirakçıları Mərkəzdə təşkil edilmiş məktəblilərin rəsm əsərlərindən ibarət sərgiyə baxış keçirdilər. 24 fevral 2022-ci il tarixində Lerik Rayon Heydər Əliyev Mərkəzində mədəniyyət işçilərinin iştirakı ilə Xocalı soyqırımına həsr olunmuş dəyirmi masa keçirildi.

Uzunömürlülər Muzeyində "Faciədən Zəfərə" başlığı altında sərgi keçirildi. Sərgiyə rayon ictimaiyyətinin nümayəndələri və məktəblilər baxış keçirdilər.

Dövlət Rəsm Qalereyasında "Xocalı-30. Faciədən Zəfərə" mövzusunda məktəblilərin və dərnək üzvlərinin çəkdikləri rəsm əsərlərindən ibarət sərgi təşkil edildi.Sərgiyə rayonun idarə və müəssisələrinin işçiləri, rayon rəhbərliyinin nümayəndələri, məktəblilər və gənclər baxaraq Xocalı soyqırımını uşaqların gözləri ilə izlədilər.

Mərkəzi Kitabxana Sistemi və kənd Kitabxana filiallarında soyqırıma həsr olunmuş kitab sərgiləri və ədəbi-bədii proqramlar keçirildi.

E.Rufullayev adına Lerik şəhər Uşaq İncəsənət Məktəbinin və Çayrud Uşaq Musiqi Məktəbinin kollektivlərinin iştirakı ilə soyqırıma həsr olunmuş anm tədbirləri keçirildi.

Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar rayon Mədəniyyət Mərkəzinin Cəngəmiran, Kirəvud, Livədirqə, Noda, Piran, Şingədulan, Zəriküməco, Züvüç, Veri və Çayrud kənd müəssisələrində anm tədbirləri keçirildi.

Xocalı soyqırımının otuzuncu ildönümünə həsr olunmuş ümumrayon tədbiri keçirildi

Fevralın 25-də tarixin ən qanlı cinayətlərindən olan Xocalı soyqırımının otuzuncu ildönümü ilə əlaqədar olaraq Lerikdə anım tədbiri keçirildi. Lerik Rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Cəlil Baxşıyev, Lənkəran Regional Mədəniyyət İdarəsinin rəisi Şahin Şahbazov, rayonun hüquq mühafizə orqanlarının, idarə müəssisə və təşkilat rəhbərləri, ictimaiyyət nümayəndələri iştirak edirdilər. Tədbir iştirakçıları Şəhidlər abidə kompleksinin önünə gül dəstələri qoyaraq soyqırım qurbanlarının xatirəsinə ehtiramlarını bildirdilər.

Sonra tədbir iştirakçıları Mədəniyyət Mərkəzinin foyesində rayon məktəblilərinin Xocalı faciəsinə həsr etdikləri əl işlərindən ibarət sərgiyə və Vətən müharibəsi şəhidlərinin xatirə lövhəsinə baxış keçirdilər.

Lerik Rayon Mədəniyyət Mərkəzində davam etdirilən tədbirdə Xocalı soyqırımı qurbanlarının və Vətən uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Lerik Rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Cəlil Baxşıyev erməni işğalçıları və havadarları tərəfindən törədilən bu misli görünməmiş faciəni, dəhşətli hadisələri xatırlayaraq Azərbaycan xalqına və dövlətinə qarşı aparılan məkirli siyasəti qınayaraq mövzu ətrafında geniş məruzə etdi. Bildirdi ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini kobudcasına pozaraq keçmiş sovet ordusunun Xankəndində yerləşən 366-cı motoalayının iştirakı ilə Xocalı şəhərinə hücum etdi və dinc əhaliyə misli görünməmiş qəddarlıqla divan tutdu. Xocalı soyqırımı zamanı 106 qadın, 63 uşaq, 70 qoca olmaqla 613 şəxs məhz azərbaycanlı olduqlarına görə ağlasığmaz vəhşiliklə qətlə yetirilmiş, 487 dinc sakin ağır yaralanmış, 1275 nəfər isə girov götürülmüşdür.

2020-ci il sentyabrın 27-də ölkə Prezidenti, Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə erməni işğalçılarına qarşı həyata keçirilən əks-hücum əməliyyatı nəticəsində düşmən qüvvələrinin məhv edilərək ağır məğlubiyyətə uğradılması ilə böyük tarixi həqiqətin bərpa edilməsi həm də Xocalı faciəsi və zaman-zaman vəhşi düşmən tərəfindən törədilən qətliamların qurbanlarının qisasının alınması ilə yaddaşlarda qalacaq. Müzəffər Azərbaycan Ordusu qısa müddətdə, cəmi 44 gün ərzində mənfur düşməni darmadağın edərək torpaqlarımızı işğaldan azad etməklə, ona layiq olduğu yeri göstərdi. Bu gün qəhrəman əsgər və zabitlərimiz həmin torpaqlarda dalğalanan müqəddəs bayrağımızı şərəflə qoruyurlar. Bu gün Xocalı şəhidlərinin, ümumiyyətlə, Vətən uğrunda canından keçən bütün qəhrəman Azərbaycan övladlarının ruhu şaddır.

Tədbirdə Lənkəran Regional Mədəniyyət İdarənin rəisi Şahin Şahbazov çıxış edərək bildirdi ki, amansızlığına, qəddarlığına görə bəşər tarixinə qanlı iz salmış, təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa qarşı yönəlmiş Xocalı qətliamından bizi 30 il ayırır. Azərbaycanlılara qarşı qanlı cinayətlər törətmək Ermənistan tərəfinin daim həyata keçirdiyi dövlət siyasətidir. Ermənistanın bu təxribatlarına və hərbi təcavüzünə cavab olaraq, 2020-ci il sentyabrın 27-də Azərbaycan xalqı əzəli torpaqlarının işğaldan qurtarılması, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinin yerinə yetirilməsi və tarixi ədalətin bərpa edilməsi uğrunda Vətən müharibəsinə qalxdı. 44 gün sürən döyüşlər nəticəsində başda Ali Baş Komandan, Prezident cənab İlham Əliyev olmaqla rəşadətli Azərbaycan Ordusu parlaq qələbə qazanaraq doğma torpaqlarımızı işğaldan azad etdi.

Tədbirin bədii hissəsində Lənkəran şəhər C.Cabarlı adına 1 saylı Uşaq Musiqi Məktəbinin uşaq xor kollektivi geniş proqramla çıxış etdi.

Daha sonra mərasim iştirakçıları mədəniyyət evinin foyesində Xocalı soyqırımına həsr olunmuş rəsm əsərlərindən ibarət sərgi ilə tanış oldular.

Yeni təyinat

Yeni Azərbaycan Partiyası Lerik rayon təşkilatının yeni sədri rayon ictimaiyyətinə təqdim olundu.

YAP Lerik rayon təşkilatının sədri Malik Mirzəyevin yeni təyinatı ilə əlaqədar olaraq rayon ictimayyətinin nümayəndələrinə təqdimatı keçirildi. Tədbirdə çıxış edən Lerik Rayon İcra Hakimiyyəti səlahiyyətlərini icra edən Cəlil Baxşıyev, partiya fəalları yeni təyin olunmuş sədr Malik Mirzəyevi təbrik edərək gələcək fəaliyyətində uğurlar arzuladılar.

Lerik Rayon İcra Hakimiyyəti başçısının 2022-ci ilin mart ayında yerlərdə keçirəcəyi səyyar qəbullara dair C Ə D V Ə L

Sıra №-si	Qəbulun keçiriləcəyi yer	Qəbulu təşkil edən şöbə	Qəbulun keçiriləcəyi tarix
1.	Blaband kəndi, Blaband kənd ƏÈN binası	Ərazi id. orq. ilə iş şöbəsi	03.03.2022
2.	Piran kəndi, Piran kənd klubu	Ərazi id. orq. ilə iş şöbəsi	10.03.2022
3.	Günəşli kəndi, Günəşli kənd tam orta məktəbinin akt zalı	Ərazi id. orq. ilə iş şöbəsi	17.03.2022
4.	Monidigah kəndi, Monidigah kənd mədəniyyət evi	Ərazi id. orq. ilə iş şöbəsi	30.03.2022

Lerik Rayon İcra Hakimiyyəti

1.qxd 04.03.2022 13:36 Page 2

Bir gəncin taleyi

(Əvvəli ötən saylarda)



Ceyhun Səfərov Vətən yolunda canından keçsə də, onun ruhu yaşayır, döyüşçü yoldaşları, müəllimləri, sinif yoldaşları tez-tez Ceyhunu xatırlayırlar. Baş gizir Nizami Talıbov o ağrılı, lakin qürurlu günləri unutmur. O, deyir:

- Biz Ceyhun Səfərovla 2013-cü ildə həqiqi hərbi xidməti bir yerdə keçirmişik. Onunla möhkəm dost idik. Ceyhunun dostluqda bütövlüyü, səmimiyyəti, qaydaları can-başla yerinə yetirməsi, çevikliyi ona komandirləri və dostları arasında xüsusi hörmət qazandırmışdı. İş elə gətirdi ki, Vətən müharibəsində də torpaqlarımızı azad etməyə onunla birlikdə getdik. Ceyhunun xarakterindəki cizgilər müharibədə də özünü göstərdi. Yaşayış məntəqələri azad edildikcə Ceyhunu tanımaq olmurdu. O hədsiz sevinir, fərəhindən yerə-göyə sığmırdı. Deyirdi ki, Şuşanı, Xankəndini, Laçını, Kəlbəcəri düşməndən azad etməyə çox qalmayıb. Təəssüf ki, Ceyhun qələbəni görə bilmədi, - Vətənə qurban getdi...

Nemət İmanov da şəhid yoldaşını, silahdaşını, məslək qardaşını ürək yanğısı ilə dilə gətirdi:

- Hərdən mənə elə gəlir ki, Ceyhun şəhid olmayıb, sağdır, aramızdadır. Yuxuma da gəlir Ceyhun. Cəbhədə keçirdiyimiz gərgin günlər, döyüşlər, otuz ilə yaxın bir müddətdə düşmənin zəbt etdiyi torpaqlar azad edilərkən keçirdiyimiz qürurlu anlar kino lenti kimi gəlir keçir gözlərimin qarşısından. Biz hər bir döyüşə böyük inamla girirdik, hər bir yaşayış məskəni azad edildikcə bunu qələbə hesab edirdik. Qorxu-hürkü hisslərimiz heçə dönmüşdü. Biz öldü var, döndü yox prinsipi ilə döyüşlərə atılırdıq. Ceyhun vuruşmanın ən qızğın çağlarında həm döyüşür, həm də yaralılara kömək edirdi. Onun sərrast atdığı atəşdən yağı düşmən qurtula bilmirdi. Sabaha, gələcəyə ümidlə, inamla baxırdı, çox vaxt öz hisslərini, arzularını bizimlə bölüşürdü. Mənə elə gəlir ki, Ceyhun Vətən uğrunda şəhid olmaq üçün böyümüşdü...

Eşq olsun Ceyhunu böyüdüb uca mərtəbəyə ucaldan ata-anasına!

Ceyhun Səfərova dərs demiş, onun təlim-tərbiyəsi ilə məşğul olmuş, Vətənə, torpağa məhəbbət ruhunda böyüməsi üçün öz pedaqoji ustalığından bacarıqla istifadə etmiş müəllimə Nüşabə Əmirova Ceyhunu öz balası kimi istəyirdi. Çünki Ceyhunun şəxsində ata-anaya, müəllimə, el-obaya, dostlarına sevgi hissləri formalaşmışdı. O, dərslərini yaxşı oxumaqla bərabər, həm də mükəmməl fiziki hazırlığa malik idi. O Qarabağın işğalından sonra anadan olsa da, yeniyetməlik çağlarında Qarabağın işğalı, didərginlər, şəhidlik, günahsız qətl edilənlər, nəhayət düşmənin mərkrli niyyəti barədə tay-tuşları ilə söhbət edər, "Qarabağ mütləq azad ediləcək, ola bilməz ki, erməni bizə meydan oxusun, işğalı həmişə davam etsin..." deyərdi.

Ceyhunun atası Akif Səfərovun evindəyik. Oğluna verilmiş təşəkkür məktublarına, diplom və fəxri fərmanlara, mobil telefonuna və saatlarına, foto-şəkillərinə, geyimlərinə baxıram. Prezident İlham Əliyevin təltif etdiyi "Vətən uğrunda", "Cəbrayılın azad edilməsinə görə", "Cəsur döyüşçü" və "Hərbi xidmətdə fərqlənməyə görə" (3-cü dərəcəli) medalları Ceyhun Səfərovun cəsurluğunu, rəşadətini, fədakarlığını, igidliyini əks etdirir. Artıq bir il yarıma yaxındır Ceyhunun mobil telefonu susur, bir zəng edən də yoxdur... Saatının əqrəbləri dayanıb: zamanmı dayanıb, yoxsa hərəkətsiz dayanmış əqrəblər də Ceyhunun itkisini susmaqla yad edir? Nə deyəsən...

Xalq şairi Məmməd Arzın "Vətən mənə oğul desə, nə dərdim, Mamır olub qayasında bitərdim" misrası hamının dillər əzbəridir. Ruhun şad olsun, ustad, necə də yerində demisən! Mərd Azərbaycan əsgəri yaşı bilinməyən, mamırlı qayaları adladı, düşməni qəfil yaxaladı. Vətəni, Şuşanı külli - Qarabağı fəth edən oğullara oğul dedi, onu bağrına basdı, ağuşuna aldı. Sevindi - bu sevincin qədəri sonsuz. Sevindi ki, işğal ləkəsini üstümüzdən atdı Azərbaycan əsgəri!

...Müəllimin "Niyə Vətən kəlməsini ana kəlməsi ilə qoşa işlədirik, Ana Vətən deyirik?" sualına Ceyhunun cavabı belə olmuşdu: "Ana ağuşunu canının, Vətəni ruhunun beşiyi bilənlər üçün Vətən də anadı. Ana haqqı da Tanrı haqqıdı, Vətən haqqı da. Ana ilə Vətəni bu haqq eyniləşdirir: Ana - Vətəndi, Vətən - anadı". Ceyhun hər ikisini bərabər sevdi. Bu segiylə də əbədiyyətə qovuşdu!

İdris Şükürlü,
Əməkdar jurnalist

Ordumuza güvənirik

Azərbaycan Ordusu cəmi 44 gün ərzində Ermənistan üzərində parlaq qələbə qazanaraq düşməni məğlub etdi. 28 ilin işğalına son qoyuldu. Cəsur döyüşçülərin mətin addımlarla irəliləməsi nəticəsində hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edildi. Azərbaycan əsgəri düşməni darmadağın edərək, tarixi ədaləti bərpa etdi. Vətən müharibəsində qazanılan qələbə xalqımızın sevincinin göstəricisi olmaqla yanaşı, ordumuzun güc və qüdrətini bütün dünyaya nümayiş etdirdi. Keçirilən Zəfər paradında Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev çıxış edərək demişdir: "...Müharibə dövründə mən deyirdim ki, bizim dəmir yumruğumuz həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirir. Bu dəmir yumruq düşmənin belini qırdı, düşmənin başını əzdi. Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik. Azərbaycanın müzəffər ordusu öz tarixi missiyasını yerinə yetirdi, Ermənistanı məğlub etdi. Ermənistan ordusu demək olar ki, yoxdur, məhv edilib. Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, nəticə eyni olacaq. Yenə Azərbaycanın dəmir yumruğu onların belini qıracaq". Düşmənə yönələn bu mesaj dövlət başçısının qətiyyətini nümayiş etdirir.

İllər uzunu torpaqlarımızı işğal etmiş, sərvətlərimizi vəhşicəsinə talamış, yaşayış məskənlərimizi dağıtmış, abidələrimizi məhv etmiş, Qarabağı ekoloji terrora məruz qoymuş təcavüzkar düşmən bilirdi ki, torpaqlarımız azad ediləcək. Ermənilər Azərbaycan xalqının iradəsini, Ali Baş Komandanın qətiyyətini görürdü. Düşmən tərəfi bunu bildiyi halda, 30 ilə yaxın müddətdə mühəndis istehkamlarını gücləndirməklə məşğul idi. Ali Baş Komandan İlham Əliyevin oktyabrın 17-cə xalqa müraciətində dedi: "30 il ərzində düşmən təmas xəttində o qədər möhkəm istehkam qurmuşdur ki, bəziləri hesab edirdi ki, Füzuli şəhərini işğaldan azad etmək mümkün deyil. Hətta ən tanınmış hərbi mütəxəssislər də belə fikirdə idi ki, Füzulini götürmək, onu işğaldan azad etmək üçün bəlkə də aylarla vaxt lazım olacaq və bu əməliyyat uğurla nəticələnəcək-nəticələnməyəcək hələ böyük sual altında idi. Ancaq müzəffər Azərbaycan Ordusu bu şərəfli missiyanın öhdəsindən gələ bildi və qısa müddət ərzində Füzuli rayonunun əksər kəndləri və Füzuli şəhəri düşmən tapdağından azad edildi. Təkcə Füzuli şəhəri yox, Qarabağ işğaldan qurtuldu. Qarabağın azad edilməsi əməliyyatında Azərbaycanın bütün bölgələrindən olan əsgər və zabitlərlə yanaşı leriklilər döyüş tapşırıqlarının yerinə yetirilməsində xüsusilə fərqləndilər, böyük hünər göstərdilər. Tank taborunun komandiri, mayor Amid Heydərovun göstərdiyi qəhrəmanlıq hamıya nümunə oldu. Prezidentin Fərmanı ilə Amid Heydərov Qarabağ müharibəsi Qəhrəmanı adına, orden və medallara layiq görüldü. Zabitlərdən Ramil Ağayev, Əliqismət Yaqublu, Murtuz Abbasov, Cəlil Cavadov, Elvin Səfərov, Samir Şükürov, Əmrah Şirvanov, Əbülfəz Rəhmətov cəsur döyüşçülərdən İman və Bəhran qardaşları, Altay və Elgün Mövlanovlar, Samir Hüseynov, Ramiq Tağıyev, Cəlal Ağayev, Tərxan Həşimov, Vidadi Cabbarov, Elnur Əsədullayev, Çingiz Babayev, Şahin Tahirli, Orxan Dənziyev və adını çəkmədiyim digər fədakar oğullar Vətən qarşısındakı borclarını ləyaqətlə yerinə yetirdilər. Onlar şəhid olsalar da unudulmur, xatirələri əbədiləşdirilir. İstər şəhid ailələrinə, istərsə də qazilərə dövlət qayğı göstərir, onların sosial ehtiyacları yerinə yetirilir. Biz şəhidlərimizlə, müharibədən sağ çıxmış cəsur döyüşçülərimizlə fəxr edirik.

Güclü ordusu olan dövlətin həmişə sərhədləri qorunur, ərazi bütövlüyü təmin olunur. Azərbaycan Ordusu bu gün istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdir. Bunu Aprel döyüşləri və Günnüt zəfəri, Vətən müharibəsindəki Qələbəmiz göstərdi. Ordumuzun gücü düşmənin gücündən çox yüksəkdir. Azərbaycan Ordusu öz gücünə arxalanır, daim inkişafdadır. Gərək hər birimizin nəbzi Vətənin nəbzi ilə bir vursun. Hərbçilərimizin qəlbində Vətən sevgisi var. Bu sevgi bitib-tükənməzdir, bizi parlaq sabahlara aparır.

Veysəl Məlikov,
Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin sədri

Tarixin qanlı səhifəsi

Azərbaycan dövləti başda ümummilli lider Heydər Əliyev olmaqla, sonrakı illərdə isə Prezident İlham Əliyevin rəhbərliyi ilə Xocalı soyqırımının dünyada tanıdılması, Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsi barədə həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması, təcavüzkarın ifşası və işğal edilmiş torpaqlarımızın azad olunması üçün bütün zəruri addımlar atıb və atmaqdadır. Azərbaycan dövləti belə taleyüklü məsələnin həlli ilə bağlı bütün milli resursların, o cümlədən diaspor qurumlarının imkanlarından həmişə istifadə etmiş, bu istiqamətdə irəli sürülən əksər ictimai təşəbbüsləri dəstəkləmişdir. Son illərdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə dünyada geniş vüsət almış "Xocalıya ədalət" (Jurtice for Khojaly) beynəlxalq kampaniyasına Azərbaycanda və xaricdə fəaliyyət göstərən çoxsaylı vətəndaş cəmiyyəti institutları da qoşularaq, ayrı-ayrı ölkələrin dövlət qurumları və ictimaiyyətini, beynəlxalq təşkilatları bu faciəyə advekat qiymət verməyə çağırırlar.

Xocalı soyqırımını törətməkdə düşmənin məqsədi Azərbaycan xalqını sarsıdaraq onun suverenlik əzmini qırmaq, ərazi bütünlüyü uğrunda apardığı mübarizədən çəkindirmək və torpaqlarımızı zorla ələ keçirmək idi. XX əsrin sonunda dünyanın gözü qarşısında baş verən, qəddarlığı və amansızlığı ilə xüsusi fərqlənən Xocalı soyqırımı təcavükar erməni siyasətinin ən qanlı səhifəsidir. Bu ağır cinayətə görə siyasi-hüquqi məsuliyyət birbaşa Ermənistanın o zamankı və sonrakı rəhbərliyinin, həmçinin Dağlıq Qarabağdakı separatçı rejimin üzərinə düşür.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri, Azərbaycanın Dağlıq Qarabağ ərazisindən erməni silahlı dəstələri, keçmiş SSRİ-nin Xankəndində yerləşən 366-cı motaatıcı alayının şəxsi heyətinin və texnikasının bilavasitə iştirakı ilə Xankəndi ilə Əsgəran arasında yerləşəm Xocalı şəhərini işğal edərək xalqımıza qarşı soyqırım siyasəti həyata keçirilmişdir. Xocalıda baş verənlərin soyqırım olduğunu həmin dövrdə bir sıra ölkələrin aparıcı kütləvi informasiya vasitələri ilə təsdiq etmişlər.

Yaxın tariximizin ən faciəvi səhifəsi olan Xocalı soyqırımı zamanı şəhərin 5379 nəfər əhalisi deportasiya olunmuş, 1275 nəfər əsir və girov götürülərək işgəncələrə məruz qalmış (onlardan 150 nəfərin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil), 487 nəfər müxtəlif dərəcəli bədən xəsarətlərin almış, 8 ailə tam məhv edilmiş, 130 uşaq valideynlərdən birini, 25 uşaq isə valideynlərdən hər ikisini itirmiş, 613 nəfər, o cümlədən 63 uşaq 106 qadın işgəncə verilməklə vəhşicəsinə öldürülmüşdür. Ermənistan silahlı birləşmələri tərəfindən Xocalı şəhərinin işğal edilməsi ilə əlaqədar Azərbaycan dövlətinə və vətəndaşlarına 170 milyon ABŞ dollarından artıq ziyan vurulmuşdur. Holokost kimi Xocalı soyqırımı da mahiyyətcə eynidir və insanlığa qarşı törədilmiş etnik təmizləmə və cinayətdir.

Avropa İnsan Hüquqları Məhkəməsi 2011-ci il 22 aprel tarixli qərarında Xocalıda törədilmiş cinayətə münasibətdə hücumda iştirak edənlərin davranışını müharibə cinayətləri və ya insanlıq əleyhinə cinayətlərə bərabər tutulan hərəkətlər kimi qiymətləndirərək mühüm nəticəyə gəlib.

Hələ 1995-ci ildə Xocalı soyqırımının 3-cü ildönümü zamanı Heydər Əliyev demişdir: "Xocalı faciəsi iki yüz ilə yaxın bir müddətdə erməni şovinist-millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamıdır və ən qanlı səhifəsidir". Ümummilli lider Heydər Əliyev Azərbaycanda rəhbərliyə qayıtdıqdan sonra erməni millətçilərinin xalqımıza qarşı törətdiyi dəhşətli cinayətlərin miqyası, o cümlədən Xocalı soyqırımı barədə həqiqəti dünya dövlətlərinə, beynəlxalq ictimaiyyətin nəzərinə çatdırdı. 1994-cü il martın 1-də Ulu Öndər Heydər Əliyev Xocalı ilə əlaqədar fərman imzalamışdır. Azərbaycan Respublikası Milli Məclisin qərarı ilə 26 fevral-Xocalı soyqırımı və Milli Matəm Günü elan olunmuş, bu barədə bütün beynəlxalq təşkilatlara məlumat verilmişdir. 1997-ci il fevralın 25-də "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" Prezident tərəfindən Fərman imzalanmışdır və hər il fevralın 26-da saat 17:00-da soyqırım qurbanları bir dəqiqəlik sükutla yad edilir.

Xocalıda tökülən qanlar bu torpağın üstündə açılan çiçəklərin rəngidir.

Xocalı faciəsi bizim qan yaddaşımızdır. Xocalı və xocalılar zaman ötsə də unudulmayacaq.

Cahid Hüseynov,
Namaz Muradov adına Günəşli kənd tam orta məktəbinin direktoru

Vətənə, torpağa məhəbbət qələbəni təmin etdi

Vətənpərvərlik insan daxilindəki duyğulardır, əgər bunlar yoxdursa, o insan mənəviyyatsızdır.
Heydər Əliyev

Təhsil ilahatının, eləcə də müasir məktəbin qarşısında duran ümdə vəzifə gənclərə elmi bilik verməklə yanaşı, onların Vətənə, torpağa sonsuz məhəbbət ruhunda tərbiyə olunmasıdır.

Azərbaycan xalqı gələcəyi olan gənc nəslin Vətənə məhəbbət, elinə və obasına hörmət, soy-kökünə, ata-babaların ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına həmişə ciddi yanaşıb, ona həyati məsələ kimi baxıb. Bu bir həqiqətdir ki, vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissi yaradır, apardığı mübarizədə onda inam hissini gücləndirir. Məhz buna görə də gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin daha da gücləndirilməsi sahəsində məqsədyönlü və sistemli iş aparılır. Azərbaycan Respublikası vətəndaşlarının hərbi vətənpərvərlik ruhunda tərbiyəsi, yeniyetmə və gənclərdə vətəndaşlıq hisslərinin yüksəldilməsi, onların ölkəmizin ərazi bütövlüyü urğunda mübarizəyə hazırlıq ruhunda yetişdirilməsi sahəsində sahəsində mütəmadi olaraq ictimai tədbirlər həyata keçirilməsi öz parlaq, bənzərsiz, zəruri nəticəsini verdi, biz 44 günlük Vətən müharibəsində Qələbəyə nail oduq. Onu da xüsusi olaraq vurğulamaq lazımdır ki, ərazilərimizin 20 faizinin düşməncəsinə işğalı, bizi bir sıra problemlərlə üz-üzə qoymişdu. Biz bu olaylara seyrci kimi baxa bilməzdik. Ulu Öndər Heydər Əliyevin, Prezident İlham Əliyevin illər boyu həyata keçirdikləri əməli fəaliyyət, siyasət öz nəticəsini verdi. Azərbaycan gənclərinin hər bir nailiyyəti, hər bir uğuru bizi Vətənimizin ərazi bütövlüyünün bərpası uğrunda müqəddəs mübarizəyə - Qələbəyə daha da yaxınlaşdırdı. Gənclərimiz Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov kimi yaxşı dərk edirdilər ki, şəhidlərimizin qısası alınmalı, işğal altındakı ərazilərimiz tezliklə azad edilməli, Azərbaycanın ərazi bütövlüyü təmin olunmalıdır. Bütün dünya xalqlarına göstərdik ki, biz öz Vətənimizi, torpağımızı, xalqımızı qorumağa qadirik. Bizim gənclərimiz müqəddəs müharibədə nəyə qadir olduqlarını göstərdilər. Tank taborunun komandiri Amid Heydərov Vətən müharibəsinin qəhrəmanı adına layiq görüldü. Onlarca lerikli zabit, gizir, əsgər canini Vətən yolunda fəda etdi. Biz onların qəhrəmanlığı barədə qəzetlərdə, kitablarda, televiziya kanallarında məlumatlar almışıq və almaqdayıq. Təkcə Cəngəmiran kəndindən birinci Qarabağ müharibəsində 10-a yaxın gənc şəhid olmuşdur. Onların xatirəsi əbədiləşdirilmiş, şəhidlərin abidə-kompleksi tikilmiş, anım günlərində yad edilmişdir. Vətən müharibəsində şəhid olmuş əsgərlərin ailələri dövlət qayğısı ilə hərtərəfli təmin olunmuş, xatirələri əbədiləşdirilmiş, orden və medallarla təltif olunmuşdur. Biz heç vaxt şəhidlərimizi unutmayacaq, onların xatirəsini ehtiramla yad edəcək, Vətənimizi göz bəbəyi kimi qoruyacaq, Ali Baş Komandanın əmrinə hər an hazır olacağıq.

Ulu Öndər Heydər Əliyevin müəllim əməyi barədə söylədiyi ibrətamiz ifadələri yada salmaq yerin düşər: "Mən yer üzündə müəllimdən yüksək ad tanımıram. Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəsi vardır. Müəllim doğma yurdunu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbrlə öyrətmiş və öyrədir". Müəllim əməyi vətən sevgisinə döndü, yetirmələri qəhrəmanlıq göstərərək Vətənimizin tamlığını təmin etdilər, onlar bizə başımızı dik tutmağı öyrətdilər.

Müqəddəs Feyruzov,
N.Nurullayev adına Cəngəmiran kənd tam orta məktəbinin direktoru

Dünyamsan, Şuşa!

Azərbaycanın musiqi beşiyi olan Şuşa şəhərinin işğaldan azad olunmasına, şəhərin yenidən dirçəlməsinə həsr edirəm.

Gözəllik tacısan böyük dünyanın,
Yoxdur gözəllikdə cahanda tayın.
Ürəyi, canısan Azərbaycanın
Kainat içində dünyamsan, Şuşa!

Keçdi qara günün, qaldı arxada,
Ordum qalib gəldi faşist cəllada.
Zəfər bayrağını sancdı Şuşada,
Əl çatmaz zirvəsən, dünyamsan, Şuşa!

Yox oldu üstündən duman, kədər, qəm,
Canlanır qoynunda yeni bir aləm.
Azad, şən həyata qoymusan qədəm,
Ağ günün başlanıb, şəhərim mənim!

Yox oldu, silindi əzablı illər,
Kəsildi qolundan polad zəncirlər.
Sizi azad etdi, bükülməz əllər,
Kainat içində dünyamsan, Şuşa!

Şən həyat nur saçır qəlbinə sənin,
Ürəyi, gözüsən bizim ölkənin.
Bəzəyir yurdumu muğamın sənin,
Dahilər yurdusan, şəhərim mənim!

Ruhunu şad etdin neçə dahinin,
Natəvan, Vaqifin, həm Üzeyirin.
Azadsan, özgürsən, qəlbimdir yerin,
Şairlər yurdusan, şəhərin mənim!

Dağılmış bucağın tam avadlaşır,
Xalqımın sevinci dəniz tək daşır.
Sənin qüdrətindən dünya danışır,
Kainat içində dünyamsan, Şuşa!

Sevinc var, qürur var, qan yaddaşında,
Yaşamaq, həyat var hər bir daşından.
Düşmənin diz çökdü bu gün qarşında,
Dahilər yurdusan, ay Şuşam mənim!

Təbəssüm, sevinc var yanaqlarında,
Güllər ətir saçır bağça-bağında.
Qurub-yaratmaq var hər ocağında,
Kainat içində dünyamsan, Şuşa!

Muradəli Hüseynov,
Bradi kəndi

Əyilməz qəhrəman, tankçı Arzuman

Birinci Qarabağ döyüşlərində misilsiz qəhrəmanlıq və şücaət göstərmiş tankçı zabit Arzuman Rüstəmova

O döyüş yerlərini gətirir göz önünə,
Xəyalı Arzumanı aparır ötən günə.
Ruhum tək duyuram mən, deyir ana torpağı,
Yolumuzu gözləyir hər dərəsi, hər dağı.

Ağrılardan, əzabdan torpaq geyəndə köynək,
Döyüşlərə atıldı Arzuman bir aslan tək.
Arzuman bu torpağa cani-dildən bağlandı,
Əyilməzdi, mərddi o, dağlar oğlu dağlıdı.

Tərtərdə, Ağdərədə səngərləri gəzərdi,
O, Qarabağ elində düşmənləri əzərdi.

Sonsuz nifrəti vardı düşmənə hər sözündə,
Düşmən belindən vurdu, qəm yurd saldı üzündə.

İki qoltuq ağacı ona qalıbdı nişan,
O yerlər yada düşür, qəlbi olur pərişan.
Arzuman yada salır Tərtəri, Ağdərəni,
Deyir o yerlər oldu xəyanətin qurbanı.

Arzuman köks ötürür, qəm görünür üzündə,
Hissini ələ alır, güc toplayır özündə.
Ötüb-keçən günləri yada salır o bir-bir,
Arzumanın qəlbində sabaha ümid bitir.

Çox əzablı keçsə də savaşda ömür-günü,
Yurd yerində çoxları heç bilməyirdi bunu.
Qarı düşmən hiyləsi onu təqib edirdi,
Qəhrəman bir zabit tək daim öndə gedirdi.

Şərəflə daşıyırdı o zabit paqonunu,
Bilmirdi bu savaşda nələr gözləyir onu.
İşğal olmuş kəndləri bir-bir azad edirdi,
Sıravi əsgərləri qələbəyə səslərdi.

Arzumanı qorudu o böyük Pərvərdigar,
Bədənindəki yara ona qalıb yadigar.
Gözəl övladlarıyla Arzuman nəfəs alır,
Ötüb keçən çağları o, tez-tez yada salır.

Ocağında böyüdüb Güneli və Nurlanı,
İlqar,Əli bəxş edir sanki ona dünyanı.

Fəxrlə o daşıyır bu gün baba adını,
Vətənsevər böyüdür o öz övladlarını.

Qohum-qardaşa açır o öz geniş qəlbini,
Arzuman yaxşı bilir böyük-kiçik yerini.
Gənclərə o həvəslə Qarabağdan danışır,
Zəhmətə çox bağlıdır, gecə-gündüz çalışır.

Vurğundur Vətəninin torpağına, daşına,
Adını həkk eləyib yurdunun yaddaşına.
Uca tutur həmişə haqqı və ədaləti,
İmanı pak, kamildi, ucadı ləyaqəti.

El-obamız onunla qurur duyur, fəxr edir,
Qəhrəman bir oğul tək əyilməzlik öyrədir.
Bu Vətən övladının möhkəmdir iradəsi,
Arzumanın üstündə var Allahın kölgəsi.

İdris Şükürlü

Hamının ehtiramına layiq şəhidlər

Odlar yurdu doğma Azərbaycanımız zaman-zaman əsrlərin sınaqlarından üzüağ çıxmışdır. Çox hücumlar, həmlələr və döyüşlər görmüşdür.

XX əsrin 30-cu illərində hələ dahi Səməd Vurğun öz məşhur "Azərbaycan" şeirində çox böyük poetik ifadə ilə Azərbaycanın tarixini, gözəl təbiətini və eyni zamanda ağrılarını göstərmişdi. " Bilinməyir yaşın sənin, Nələr çəkmiş başın sənin." Böyük şairin bu misralarına diqqət yetirsək, vətənimizin tarixi necə zəngin olduğunu və onun üstündən necə sərt küləklərin əsdiyini görə bilərik.

Təbii ki, zaman -zaman bu torpaq böyük sərkərdələr, qəhrəmanlar yetişib. Babək, Cavanşir, Cavad xan, Səttarxan, Səməd bəy Mehmandarov, Əliağa Şıxlınski, Həzi Aslanov, Mübariz İbrahimov, Polad Həşimov və d. adlarını çəkə bilmədiyim qəhrəmanlar. Bunların hər biri gələcək nəsillər üçün əsl örnəkdir. Ermənistan və Azərbaycanın Qarabağ münaqişəsi başlanan ilk gündən qəhrəman oğullarımız ərazi bütövlüyü uğurunda səfərbər olunmuşdular. Azərbaycanın digər bölgələri kimi, Leriok rayonu da Vətən uğrunda şəhidlər vermişdir. Bu da insanların vətənə, torpağa, dövlətə və dövlətçiliyə sadiq olmağından irəli gəlir. Birinci Qarabağ müharibəsində Veri kəndindən olan dörd şəhid və bir çox müharibə iştirakçıları olmuşlar.

Veri ərazisinin Küsəkaran kəndindən birinci Qarabağ müharibəsinin şəhidi Balamir Məmmədov Küsəkəran kəndində Şirməmməd kişinin və Güllü xanımın ailəsində anadan olmuşdur. Çox uşaqlı ailədə doğulan və o ailənin son beşiyi olan Baləmir Məmmədov Küsəkəran kənd məktəbini və Veri kənd orta məkdəbini bitirmişdir. Müharibə başlayan vaxtlarda həqiqi hərbi xidmətə çağırılmışdır. Ağdərə istiqamətində gedən döyüşələrdə şəhidlik zirəvsinə ucalan şəhidimiz doğulduğu kənddə dəfn olunmuşdur. Bir vaxtlar Balamir Məmmədovun oxuduğu Küsəkəran kənd məktəbi indi onun adını daşıyır.

Şəhid Telman Kazımov Babaküçə kəndində doğulmuş və Veri kənd orta məktəbini bitirmişdir. O da Qarabağ uğruda gedən döyüşlərdə şəhid olmuşdur. Telman Kazımovun bir vaxtlar oxuduğu Veri kənd tam orta məktəbi hazırda onun adınadır.

Birinci Qarabağ müharibəsində şəhidlik zirvəsinə ucalan qəhrəmanlardan olan Möhubbət Məhərrəmov Veri - Əliabadı kəndəndən anadan olmuşdur. Veri - Əliabadı kənd məktəbini və Veri kənd orta məktəbini bitirmişdir. O da Vətən uğurunda canından keçmiş igidlərdən biridir.

Valeh Rəhimov Veri - Əliabadı kəndəndə Yaqub kişinin və Xanımcan ananın ailəsinin sonbeşiyi idi. Şəhid Valeh Rəhimov da ilk təhsilini doğulduğu kənd məktəbindən və Veri kənd tam orta məktəbində almışdır. Birinci Qarabağ müharibəsində vətən uğrunda qəhrəmancasına şəhid olmuşdur. Veri - Əliabad kənd məktəbi qəhrəman şəhidimizin adını daşıyır.

Balamir də, Telman da, Möhübbət də, Valeh də zaman-zaman yaddaşlarda yaşayacaqlar.

Muhüribə gedəndə o könüllülərin içərisində xüsusilə seçilirdi. Sadiq Nadir oğlu Rəhimov və digər gənclər öz adların könüllərin siyahısına yazmışdılar. Bircə cənab Prezident İlham Əliyevin döyüş əmrini gözləyirdilər. Vətən uğrunda, doğma Qarabağ torpaqlarını düşməndən azad etmək üçün döyüşə hazır idilər.

Sadiq Nadir oğlu Rəhimov 10 dekabr 1997 -ci ildə Veri -Əliabadı kəndində anadan olmuşdur. Sadiq birinci Qarabağ müharibəsində, Veri kəndin dörd şəhiddən biri idi. O Valeh Rəhimovun qardaşı oğludur. Sadiq ilk təhsilini əmisinin adını daşıyan Veri - Əliabadı kəndində almışdır...

Hələ birinci Qarabağ müharibəsində Sadiqin əmisi Xudaverən Rəhimov, Vidadi və Habil Rərimovlar da (Şəhid Sadiqin atasının əmisi oğlanları) döyüşlərdə iştirak etmişdilər. Qarabağ qazisi olublar. (Vidadi Rəhimov 18 oktyabr 2005 -ci ildə rəhmətə getmişdir) . Şəhid Sadiq Rəhimovun digər əmiləri Şəmsəddin və Elçin Rəhimovlar Azərbaycan Ordusunun yüksək rütübləli zabidləri olublar. Dayları da Ağaddin, İlqar və Rafiq Rəhimovlar və digər qohumları müharibə iştirakçıları idilər.

27 sentiyabr 2020-ci il. Hər bir azərbaycanlı o günü səbirsizliklə gözləyirdi. Cənab Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən əks-hücüm əmri verildi. Qüdrətli Azərbaycan Ordusu hücuma başladı. Sadiq Rəhimov da döyüşlərə qatıldı. O Füzuli, Cəbrail və Xocəvəndin azad olunması uğrunda qəhrəmancasına vuruşdu. O Şuşa istiqamətində, Xocəvənd uğrunda gedən döyüşələrdə şəhidlik zirvəsinə ucaldı. Şəhidi doğulduğu Veri -Əliabadı kəndində torpağa tapşırıldı.

Güclü və qüdrətli ordusu olan dövlət heç vaxt basıla biləməz. Qoy güclü və qüdrətli Azərbaycan yaşasın. Müzəffər Ali Baş Komandan İlham Əliyevin göstərdiyi o dəmir yumruq əbədi olsun. Dəmir yumruq gücümüzün və birliyimizin rəmzidir.

İltimas SƏMİMİ

"Şuşa ili"

Üç sənətin bilicisi - Xarrat Qulu Məhəmməd oğlu ustadlar ustadıdır

Şuşanı "Qafqazın konservatoriyası", "Musiqi və poeziyanın beşiyi", "Möcüzələr diyarı", "Qarabağın tacı" adlandırıblar. Deyərdilər ki, Şuşanın uşaqları "Sehag"da ağlayar, "Şahnaz" üstündə gülərlər.

Musiqi tarixçisi Firudin Şuşinski yazırdı: "Şuşa Qafqazın konservatoriyası, həm də vokal məktəbi kimi də bütün Yaxın və Orta Şərqdə məşhur idi... İtaliya vokal məktəbi Avropanın musiqi tarixində hansı mövqeyi tutursa, Şuşa vokal məktəbi də Şərq mədəniyyəti tarixində eyni zirvədə dayanır". "Kaspi" qəzeti 1900-cü il 12 avqust tarixli sayında yazırdı: "Vaxtilə Şuşanı "Qafqazın İtaliyası" adlandırmışlar".

Arxiv materiallarından, tədqiqatlardan aydın olur ki, Azərbaycanda ilk musiqi məktəbi XIX əsrin axırlarında Şuşada, sonralar isə Şamaxı və Bakıda açılıb. Şuşada musiqi məktəbinin yaradıcısı məşhur musiqişünas Xarrat qulu Məhəmməd oğlu idi.

O, 1823-cü ildə Şuşada doğulub. Mir Möhsün Nəvvab yazırdı ki, mən Qulunun astası Məhəmməd İbrahimi görmüşəm. Nağara çalar, oyunbazlıq edər, bazarda car çəkərdi. Ancaq oğlu Kərbəlayi Qulu xoş görünüşlü bir kişi idi. Farsca savadı var idi. Məşğuliyyəti dülgərlik idi. Axır vaxtlar səbihgərdanlıq (dini dramlarda rejissorluq) edirdi...

Firudin bəy Köçərli "Azərbaycan ədəbiyyatı" kitabında yazırdı: "Kərbəlayi Qulunun sənət xarratlıq idi. Çox dəqiq və əhli-zövq, şirinkəlam bir şəxs idi ki, cümlə Şuşa əhli onu əziz, mehriban tutardı. Öz sənətində artıq məharəti olduğu kimi, elmi musiqidən də xəbərdar idi".

Beləliklə, Qulu həm bacarıqlı xarrat, həm gözəl səsli muğam ustadı, həm də istedadlı şair idi. Bu sənətkar hər üç sahədə uğurlar qazanmışdı. Yusifi təxəllüsü ilə əsasən həm dini mövzuda, həm də lirik aşiqanə şeirlər, həcvlər, mərsiyələr, qəzəllər yazardı. Onun müasirləri ilə şeirləşməsi də məlumdur.

Xarrat Qulunun təşkil etdiyi məktəbdə 70-ə qədər sazəndə fəaliyyət göstərirdi. O, məktəbdə gözəl səsi olan gəncləri cəlb edərək onlara muğamatı oxumaq qaydalarını öyrədərdi. O zaman bu məktəb əslində dinə xidmət məqsədilə yaradılsa da, Azərbaycanda vokal və çalğı musiqisinin inkişafında mühüm rol oynadı. Danılmaz faktdır ki, Xarrat Qulunun musiqi məktəbi bir sıra ustad sənətkarların yetişməsinə səbəb olub. Azərbaycanın görkəmli xanəndələrindən Hacı Hüsü, Məşəd İsi, Şahnaz Abbas, Dəli İsmayıl, Bülbülcan, Keçəçi oğlu Məhəmməd, Cabbar Qaryağdıoğlu və məşhur tarzən Sadıqcan Xarrat Qulunun yetirmələridir. Xanəndəlik sənətinin inkişafı ilə əlaqədaraq olaraq Şuşada musiqinin nəzəri məsələlərinə dair əsərlər də yaranırdı. Bu sırada məşhur alim və şair Mir Möhsün Nəvvabın adı mütləq qeyd edilməlidir.

Kərbəlayı Xarrat Qulu 1883-cü ildə 60 yaşında Şuşada vəfat etmiş və orada da dəfn olumuşdur. Ölümündən sonra Kor Xəlifə adı bir musiqişünas onun yolunu davam etdirərək Şuşada musiqi məktəbi açıb. Kor Xəlifə adlı bir müsiqişünas onun yolunu davam etdirərək Şuşada musiqi məktəbi açıb. Kor Xəlifədən sonra isə məktəb öz fəaliyyətini dayandırıb. Buna baxmayaraq Azərbaycanın bir sıra şəhərlərində musiqi məclisləri, dərnəklər yarandı. Xarrat Qulunun musiqi məktəbindən Mir Möhsün Nəvvabın, Xurşidbanu Natəvanın məclislərindən sonra təkcə Şuşada deyil, Qarabağda, bütün Azərbaycanda silsilə şəklində məktəblər çoxaldı, mədəni həyatın inkişafı öz axarı ilə getməyə başladı. Bütün bunlara rəğmən Azərbaycan musiqi dünyasının ilk təməli məhz Şuşada qoyulub. Onun əsas yaradıcılarından biri də haqqında danışdığımız Xarrat Qulu olub.

...Üç sənətin bilicisi adlandırılan Xarrat Qulu ağacdan gözəl əşyalar, fiqurlar, qəlyanlar, müxtəlif milli musiqi alətlərinin əsas hissələrini düzəldərdi. Gözəl səsi vardı. Ona muğam ustası da deyərdilər. Həm də istedadlı şair idi. Mir Möhsün Nəvvabın təzkirələrində rübailəri, qəzəlləri bizə yadigar qalıb.

Rahil Qafarov,
Z.Tağıyev adına Çayrud kənd musiqi məktəbinin direktoru

Müharibədən, şəhiddən yazanda əvvəcə nədən və necə yazmağı öyrən!

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və sərkərdəlik məharəti, ordumuzun, əsgərlərimizin hünəri, sarsılmaz rəşadəti ilə biz Qarabağı – qara bağrımıza dönmüş məmləkəti işğaldan azad etdik. Bununla da, nəinki qüdrətli sənətkarlarımızın, Qarabağ həsrəti ilə dünyadan köçmüş insanların ruhunu da Qarabağa qaytardıq. Həm də ölkəmin şərəf tarixinin üzərinə düşmüş ləkəni sildik, utancımızı yox etdik. Ermənilərin 30 illər boyu səngərə, silah-sursat bazasına çevirdiyi yerləri öz qalamıza, söz qalamıza çevirməyi bacardıq, düşmənin mifini dağıdıb məhv etdik.

Deməк çox qürurvericidir ki, dünya gördü ki, XXI əsrin qalib dövləti Azərbaycandır, əsrin qalib ordusu Azərbaycan Ordusudur, qalib əsgəridir. Yatmış şir, pələng oyananda qisası belə olurmuş!

Şuşa əməliyyatı dünya hərb tarixinin qəhrəmanlıq tarixi olmaqla, həm də qeyri-adi hadisəsi, gerçəklikdir. Bu gerçəkliklə dünya barışır, dünya silkələnir, sabahkı dünya öyrənir...

Bu qeydləri yazının başlanğıcı üçün qələmə aldım. Çox yaxşıdır ki, cənab Prezident 2022-ci ili dövlət səviyyəsində "Şuşa İli" elan edilməsi haqqında Sərəncam vermişdir. Cənab İlham Əliyev Şuşanın yenidən qurulması prosesinə şəxsən özü rəhbərlik edir və bu unikal şəhərin, bölgənin dünyanın ən gözəl məkanlardan birinə çevriləcəyinə inam yaradır.

Keçək əsas məsələyə. Bir yazar olaraq mən 1941–1945-ci illər müharibəsindən, Əfqanıstanda həlak olanlardan, Birinci və İkinci Qarabağ müharibələrində Vətən torpağına qurban gedən şəhidlərimizdən 6-7 kitab, çoxlu məqalə, oçerk, bir neçə sənədli povest yazıb çap etdirmişəm. Yenə də yazıçı-jurnalist missiyamı daha həvəslə davam etdirirəm. "Qarabağ, çətin ki, qayıda..." – deyən bəzi inamsızlara: "Qarabağ alındı, dediyinizə görə utanırsınız?" – cavabını versəm də, bu, reallıqdır.

Hərbdən, müharibədən, al qanı Vətən torpağına çilənmiş şəhidlərdən, qazilərdən yazmaq mənim maraq dairəmə daxildir. Universitetin jurnalistika fakültəsində oxuduğum illərdə bizə müdrik müəllimlərimiz necə yazmağı və yalnız həqiqəti yazmağı öyrədiblər. Həm də yazarın (istər şair, jurnalist və ya nasir olsun) bir qədər istedadı da olmalıdır. İstedad, peşəkarlıq və zəhmət olmasa, çətin məsələdir. Bir ehtiyatda olan zabit, əsgərlər babası olaraq (üç oğlum Milli Orduda xidmət edib) İkinci Qarabağ müharibəsinə, şəhidlərimizə, qazilərimizə dair yazılanları oxuyuram. Şəhidlərin dəfnetmə mərasimlərində, bulaq komplekslərinin, xatirə lövhələrinin açılışlarında göz yaşlarımı saxlaya bilməmişəm. Şəhidlər barədə kitab yazarkən bir neçə dəfə xəstələnmişəm. Mənə elə gəlir ki, buna səbəb hadisələrə fərdi yanaşma tərzim, duyumlu, emosional olmağım, faktı dəqiqləşdirdikcə sanki cəbhə yollarının xəritəsində gəzişməyim, özümü şəhidlərin valideynləri kimi hiss etməyim olub!..

"Hərbi and" qəzetinin hər bir nömrəsini oxuyuram. Hərbi sahədən, müharibədən, şəhidlik mövzusundan yazılanlar məni qane edir. Görünür, bu qəzetdə, dediyim kimi, əsl peşəkar jurnalistlər, hərbə bələd olanlar çalışırlar. Qəzetin 28 yanvar 2022-ci il tarixli sayında (№ 04) qələminə hörmətlə yanaşdığım Vahid Məhərrəmovun "Ay yazıçılar, oxucuları özünüzdən narazı salmayın..." yazısını nəzərdən keçirərkən gördüm ki, Vahid qardaşım elə mənim ürəyimdən keçənlərə toxunub.

Tanınmış jurnalist Vahid Məhərrəmov həmin məqalədə haqlı olaraq qeyd edib ki, yazılan reallığı əks etdirməlidir, oxucunu narazı salmamalıdır. Qarşındakı oxucu həssasdır, özünü qoy onun yerinə. Bəzi qəzetlərdə atanın-ananın adından yazırlar ki, "mən övladımın ölümü ilə fəxr edirəm". Bir insafın olsun. Hansı ata, ana oğlunun ölümünü arzu edər? Bu ki absurddur!

Əgər yazılsaydı ki, Vətən, torpaq, qeyrət, namus uğrunda şəhid olub, canını Vətənin tamlığı, azadlığı, suverenliyinə fəda edib, bu başqa məsələ olardı. Qəzetlərdən biri 10-12 cümləlik məqalə çap edib, adını da qoyub "Şəhid Familin dastanı" (ad şərtidir). İnsafın olsun, düşməni mələdib başına ot tökən, onu hərbi paltar geyməyə peşman edən qəhrəmanın dastanını bu kiçik və primitiv yazıya necə sığışdırıb ona "şəhidin dastanı" deyirsən? Əlbəttə, yaza bilsəydin, dastan olardı. Axı bu dastanın nədən ibarət olduğunu biz görmürük! Hər bir şəhidimiz dastana sığmayan bir yol keçib.

Vahid Məhərrəmov yazısında bəzi yazarların səriştəsizliyinə toxunub. Çox da haqlıdır. Müharibədən ancaq peşəkarlar yaza bilər. Məsələ hər şeydən yox, lazım olandan yazmaqdır. Çap olunmuş kitablarda, qəzet və jurnallarda çoxlu səhvlərə, təhriflərə, olmayan hadisələrin təsvirinə rast gəlirik. Müharibə kolxoz deyil, istədiyini yazasan. Arayıb-axtarmaq, faktı dəqiqləşdirmək, şəhidin canlı şahidlərini dinləmək, sənədlərə baxmaq lazımdır. Görürsən naşı yazılanların hamısı bir-birinə oxşayır, biri digərinin təkrarıdır. Zəif, bəsit yazı kimə lazımdır? Yeni söz, deyim tərzi tapa bilməyən qəzet, yazar özünü hörmətdən salır, oxucuda mənfi rəy yaradır. Bu, lazımdırmı? Onsuz da, şəhidlərimizin hünəri dünyaya bəllidir. Onu elə təsvir etmək gərəkdir ki, oxuyan unutmasın.

Çox heyif ki, bəziləri şanlı Qələbəmizə, Zəfər yürüşümüzə, əsgər rəşadətinə yazılarında zəif aspektdən yanaşırlar. Onlara sözüm budur ki, yaza bilmirsənsə, yazma. Öyrənib yazmaq eyib sayılmır. Bəziləri ad çıxarmaq, diqqət cəlb eləmək, məşhur olmaq xatirinə müharibə mövzusunu seçiblər. Tez-tələsik kitab çap etdirir, təqdimatlara tələsirlər.

Bizim şəhidlər, qazilər, müzəffər Azərbaycan Ordusu 44 günlük böyük savaşda hünər göstəriblər, özlərini dünyaya təqdim ediblər. Onların təqdimata ehtiyacı yoxdur.

P.S. Sonda bir məsələni diqqətə çatdırmaq istərdim. Yaxşı olardı ki, sayılıb-seçilən media orqanları 44 günlük Vətən müharibəsini, şəhidlərimizi, qazilərimizi, vətənpərvərliyi vəsf edən publisistik və bədii əsərlər, kinossenarilər, təsviri və memarlıq sənət nümunələri üçün müsabiqələr təşkil etsinlər. Ən yaxşıları qalib olsunlar.

İdris Şükürlü

Rəqəmlər irəliləyişlərdən xəbər verir

2021-ci il Azərbaycan dövlətinin və xalqının tarixinə inkişaf və tərəqqi ili kimi daxil olacaqdır. Ölkə rəhbərinin tapşırığı ilə işğaldan azad edilmiş torpaqlada möhtəşəm quruculuq işləri aparılır. Torpaqlarımızın azad edilməsi dövlətimizin sosial-iqtisadi inkişafına daha da təkan olacaqdır. Orada infrastruktur layihələri həyata keçiriləcəkdir. Ən önəmlisi minlərlə fəal əhali daimi işlə təmin ediləcəkdir.

Pandemiyanın yaratdığı çətinliklər iqtisadiyyata nə qədər təsir etsədə, rayonumuzun iqtisadiyyatının əsasını təşkil edən kənd təsərrüfatı inkişaf etmişdir. 2021-ci ildə 60766.3 min manat kənd təsərrüfatı məhsulu istehsal edilmişdir. 2020-ci ilə nisbətən fiziki həcm indeksi 4.5% çox olmuşdur.

2021-ci il ərzində rayon üzrə cəmi 3040.5 ha sahədən 6992,5 ton taxıl istehsal olunaraq, 1 hektardan 23,0 sentner taxıl əldə olunmuşdur. Rayon üçün kartofçuluq əsas istehsal sahəsidir və bu məqsədlə 19022.8 ton məhsul əldə olunmuşdur. Hər hektardan 126.4 sentner kartof yumruları götürülmüşdür.

Eyni zamanda tərəvəz və digər kənd təsərrüfatı bitkilərinin də əkin sahələri ildən ilə genişləndirilir. Artıq 2022-ci ilin məhsulu üçün 2847 ha sahədə payızlıq əkin səpilmişdir.

Heyvandarlıq sahələrində mal-qaranın və qoyunların baş sayı azalsa da, məhsul istehsalı artmışdır. Keçən ilin müvafiq dövrü ilə müqayisədə iri buynuzlu mal-qaranın baş sayı 0,6% , qoyun-keçilərin baş sayı isə 2.0% azalmışdır, diri çəkidə ət istehsalı ötən ilin səviyyəsindən 4.5% , süd istehsalı isə 1.3 % çox olmuşdur. Yumurta istehsalı isə 14 min ədəd və ya 0,2% artmışdır.

Əsaslı tikinti. 2021-ci ildə bütün maliyyə mənbələrində, tikinti komplekslərində 8430.3 min manat məbləğində, yaxud 2020-ci ilin müvafiq dövründən xeyli çox təmir tikinti işləri icra edilmişdir.

Nəqliyyat. Nəqliyyat müəssisələri və avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən 2021-ci ilin yanvar-dekabr aylarında 251 min ton, yaxud keçən ildəkindən 2 min ton çox yük, 943 min nəfər və ya 171 min nəfər çox sərnişin daşınmışdır.

Rabitə. Rabitə müəssisələri əhaliyyə, müəssisə və təşkilatlara faktiki qiymətlərlə 178.8 min manatlıq və ya ötən ildəkindən 4.5% çox rabitə xidməti göstərmişlər. Rabitə xidmətlərinin 93,7%-i bilavasitə əhaliyə göstərilmişdir

Əmək haqqı. 2021-ci ildə muzdala işləyənlərin orta aylıq əmək haqqı 452,4 manat olmuşdur.

Əmtəə dövriyyəsi və ödənişli xidmət. Gəlirlərin artırılması ilə yanaşı əhalinin ticarət şəbəkələrindən aldıqları istehlak malları və onlara göstərilən xidmətlərin çeşidi və həcmi də artmışdır. İlin əvvəlindən axırına kimi əhaliyə 103741.9 min manatlıq istehlak malları satılmış və ödənişli xidmətlər göstərilmişdir.

Ötən ilə nisbətən pərakəndə əmtəə dövriyyəsi 0.8% artmışdır.

DEMOQRAFİK VƏZİYYƏT

01 yanvar 2021-ci il tarixə rayon əhalisinin sayı ilkin hesablamalara görə 86,4 min nəfər olmuşdur. 2020-ci ildə əhalinin sayı ötən ilə nisbətən 680 nəfər və ya 1,0 % artmışdır. Əhalinin 10,2%-i şəhər yerlərində, 89,8%-i isə kənd yerlərində yaşayır. Rayon əhalisinin 49,8 %-ni kişilər, 50,2 %-in qadınlar təşkil edir.

2021-ci il ərzində illik hesablamalara əsasən rayonda doğulanlarfn sayı ötən illə müqayisədə 10 nəfər artmışdır. Ölənlərin sayı isə 97 nəfər azalmışdır. Cari ildə 343 nigah qeydə alınmışdır. Ötən illə müqayisədə nigahların sayında 72 nəfər artma müşahidə edilimışdır.

Səhiyyə. Əhalinin sosial rifahını yaxşılaşdırmaq üçün rayon ərazisində bir çox təyinatlı obyektlər fəaliyyət göstərirlər.

2021-ci ildə rayon əhalisinin sağlamlığını qorumaq məqsədi ilə 7 xəstaxana, 26 ambulator - poliklinika müəssisələri fəaliyyət göstərir və onlarda da 50 həkim və 169 nəfər orta tibb işçisi çalışır. Beləliklə rayon əhalisinin hər 10 000 nəfərinə 20.8 xəstəxana çarpayıları düşür.

Son illərlə müqaisədə səhiyyə sahəsində əsaslı dəyişiklik olmamışdır. Regionların sosial iqtisadi inkişafı sahəsində məlum fərmanlardan irəli gələn vəzifələrdən biri də səhiyyə obyektlərinin yenidən qurulması və ya köhnə xəstəxanaların təmir olunması, onların maddi bazasının möhkəmləndirilməsi olmuşdur.

Təhsil. 2020-2021-ci tədris ilində rayonda 106 gündüz ümumitəhsil məktəblərində 6744 nəfər şagird təhsil alır, onların 87.5%-i birinci, 12,5%-i isə ikinci növbədə oxuyurlar. 2019-2020-ci tədris ilinə nisbətən şagirdlərin sayı 156 nəfər və ya 2.3% azalmışdır. Rayonun 1 şəhər və bir neçə iri və xırda kəndlərində 13 dövlət məktəbəqədər uşaq müəssisəsi (bağça) fəaliyyət göstərir və onlarda 520 nəfər uşaq tərbiyə alır.

Rayonun bütün məktəb və uşaq mussəsisələrin hamısında 1297 nəfər müəllim və pedoqoji işçilər işləyirlər. Ümumilikdə rayon əhalisinin təhsil səviyyəsi ildən ilə artır. Hazırda elimlər namizədlərin sayı 17 nəfərə, ali təhsilli mütəxəssislərin sayı 2985 nəfərə, orta ixtisas təhsilli mütəxəssislərin sayı isə 3096 nəfərə çatmışdır.

Rayon ərazisində ali və orta ixtisas təhsilli verən heç bir təhsil müəssisəsi yoxdur. Mövcüd peşə məktəbinə isə ildə 20 nəfər şagird qəbul olunur və bir iki il müddətinə qadın bərbəri, xalça ustası, kompüter kursu, traktorist mütəxəssisləri istehsalatın ayrı-ayrı sahələrinə göndərilir.

Mədəniyyət və turizm. Mədəniyyət və turizim Nazirliyi yaranandan sonra rayonumuzda Mədəniyyət şöbəsi də Mədəniyyət və turizim idarəsi adını daşıdı.

Cari ildə rayon mərkəzində və kəndlərində 11 mədəniyyət evi, 58 klub, 60 kütləvi kitabxana, uzunömürlülər muzeyi, tarix diyarşünaslıq müzeyi və H. Əliyev mərkəzi, oktyabr ayından isə Bayraq müzeyi fəaliyyət göstərir.

Respulikanın paytaxtı və böyük rayonların teatr kollektivləri tez-tez rayonumuzda qastrollarda olurlar.

2021-ci ildə tarix-diyarşunaslıq müzeyinə gələnlərin sayı 0.9 min nəfər olmuşdur. 2021-ci ilin 12 ayı ərzində kitabxanalarda oxucuların sayı 21.7 min nəfər olmuşdur.

İlin son aylarında yeni çap olunmuş kitabların 0,6 min nüsxəsi artmış və ümumilikdə 312,1 min nüsxə kitab fondu yaranmışdır.

Hazırda rayon mədəniyyət və turizm idarəsi Lənkəran Regional Mədəniyyət və Turizm idarəsinin şöbəsi kimi fəaliyyətini davam etdirir.

İNZİBATİ HÜQUQPOZMALAR

2021-ci il ərzində rayonun bütün idarə və müəssisələrində 1106 hüquqpozmalar qeydə alınmışdır.

Hüquqpozmalar əsasən rayon icra hakimiyyəti, yol nəqliyyatı, məhkəmə, polis şöbəsi, səfərbərlik və hərbi xidmətə çağırış üzrə rayon şöbəsi, və digər idarə - müəssisələr tərəfindən qeydə alınmaqla bütün aidiyyəti təşkilatlar tərəfindən 75569 manat cərimə tətbiq olunmuşdur.

2020-ci illə müqaisədə 309 halda az inzibati xətaya yol verilərək ötən ilə nisbətən 15.6% azalma müşahidə olunmuşdur. Bütun bunlara baxmayaraq inzibati hüquqpozmaların qedə alındığı təşkilatlar sırasında ön sırada rayon yol polisi durur. Təkcə 2021-ci ildə 763 nəfər sürücü saxlanılmış və bunların 653-ü tərəfindən qeydə alınan hüquqpozmalara görə onlara 40960 manat məbləğində cərimə tətbiq edilmişdir. Bu da ümumi inzibati hüquqpozmaların 59% -ni təşkil edir. Tətbiq edilmiş 75569 manat cərimənin 62540 manatı və ya 82,8%-i səbəbkarlar tərəfindən ödənilmişdir.

KƏND TƏSƏRRÜFATI

Rayonda kənd təsərrufatının əsasını heyvandarlıq və bitkiçilik sahələri təşkil edir.

2021-ci ildə rayonun ailə, kəndli və fermer və habelə şəxsi təsərrüfatlarında 3040.5 hektar sahədən payızlıq və yazlıq bitkilər yığılmışdır. Bu sahələrdən 6992,5 ton məhsul toplanmışdır.

Bununla yanaşı kartof, tərəvəz və digər bitkiçilik məhsulları da yetişdirilmişdir. Onların hektarla sahəsi məhsuldarlığı və məhsul haqqında ətraflı məlumatı aşağıdakı cədvəldə görmək olar:

Rayon ərazisi müxtəlif iqlim şəraitinə malik olduğu üçün bir hissəsində yaxşı taxıl, bir hissəsində kartof, o biri hissəsində tərəvəz və meyvəçilikdən yüksək məhsul götürmək olur.

Keçmişdə yaxşı çay plantasıyaların olmasına baxmayaraq hazırda onlar baxımsızlıqdan məhv edilmişdir.

Rayonun Nüvədi, Əliabad Şingədulan, Noda, Monidigah, Molalan, Livədirqə, Cəngəmiran və digər ərazilərində daha çox taxıl əkmişlər və hər hektardan 23-26 sentner məhsul götürülmüşdür.

Rayonun Orand, Çayrüd, Veri, Daster, Pirasora, Kələxan Noda və Mistan ərazilərində daha yaxşı kartof məhsulu, hektardan 130-140 sentner məhsul əldə olunmuşdur. Livədirqə, Qosmalian, Kələxan, Vizəzəmin, Siyov, Piran ərazilərində tərəvəz məhsularının yetişdirilir və hektardan yüksək məhsul əldə olunur.

Əsasən rayonun bütün kəndlərində kartof yetişdirilərək hektardan 120-135 sentnerə qədər məhsul götürülür. Keçmiş 10 ildə müqayisədə kartof istehsalı 3-3,5 dəfə artmışdır.

Yazlıq əkinlərin müəyyən qismində tərəvəzin də payı vardır. Tərəvəz növlərindən əsasən soğan, sarımsaq, kələm, xiyar, pomidor və digərləri ayrı - ayrı ərazilərdə əkilir. Tərəvəzin orta məhsuldarlığı 129 sentnerə çatmışdır. İqlim şəraitinə görə bostan məhsulları yetişdirilmir. Rayon əhalisinin bu məhsula olan tələbatını bazar ödəyir.

Heyvandarlıq 2021-ci ildə rayonun bütün təsərrüfat kateqoriyalarında 5491 ton (diri çəkidə) mal və quş əti, 23961 ton süd, 218.4 ton yun (fiziki çəkidə) və 7450 min ədəd ev quşlarından yumurta istehsal olunmuşdur.

2022-ci ilin 01 yanvar tarixinə bütün təsərrüfat katiqoriyalarında 38,6 min baş iri buynuzlu qara mal o, cümlədən 17 min baş inək və camış, 112 min baş qoyun və keçilər mövcud olmuşdur. Ötən ildəkinə nisbətən mal-qaranın baş sayı 247 baş, o cümlədən inəklərin baş sayı 124 baş, qoyun-quzular isə 2330 baş azalmışdır.

Rayonun Tikəband, Çayrud, Vizəzəmin, Osyodərə, Noda, Nuvədi Kirəvud və digər ərazilərində daha çox qaramal, Çayrud, Veri, Pirasora, Şingədulan, Nüvədi, Nuravud ərazi dairələrində isə digər ərazilərə nisbətən çox qoyun - keçi saxlanılır.

Bundan başqa 26 hüquqi ünvana malik olan kəndli fermer təsərrüfatları və 80 digər ailə təsərrüfatları kənd təsərrüfatı məhsullarının istehsalı və satışı ilə məşğuldurlar.

Kollektiv təsərrüfatlarda 352 baş qara-mal, o cümlədən 169 baş inək və camış 19140 baş qoyun- keçi vardır. 2021-ci ildə kollektiv təsərrüfatlarda 88,3 ton ət, 45.6 ton süd istehsal edilmişdir.

2021-ci ildə 60766.3 min manatlıq bitkiçilik və heyvandarlıq (19504.8 min manat bitkiçilik, 41261.5 min manat heyvandarlıq) məhsulları istehsal edilmişdir ki, bu da 2020-ci illə müqayisədə 4,5% çoxdur.

SƏNAYE

Rayon ərazisində 4 dan artıq iri və kiçik sənaye müəssisəsi mövcüddür. Lakin bunlardan yalnız 3-ü Elektirik paylayıcı şəbəkəsi, Qaz İstismar İdarəsi və Su Kanal idarəsi, Lerik Rayon Modul Elektrik Şəbəkəsi fəaliyyət göstərirlər. Digərinin isə il boyu heç bir fəaliyyəti olmamışdır.

Fəaliyyətdə olan sənaye müəssisələri 2021-ci ildə 9436.3 min manatlıq işi icra etmişlər.

Hər işçinin orta aylıq əmək haqqı 564.2 manata çatmışdır. 2020-ci il ilə müqayisədə 35.4 manat və ya 6.7% artmışdır.

Hər iki müəssisədə 138 nəfər fəhlə və qulluqçu çalışır. İl ərzində onlara 51.0 min manat əməkhaqqı ödənilmişdir.

Hər işçinin orta aylıq əmək haqqı 369 manat təşkil edir.

ƏSASLI TİKİNTİ

Rayon ərazisində 2 tikinti təşkilatı fəaliyyət göstərir. Bu təşkilatlar əsasən təmir işləri ilə məşğul olmuşlar. 1 təşkilatın il boyu heç bir fəaliyyəti olmamışdır.

2021-ci ilin yanvar-dekabr ayları ərzində malların təqdim edilməsi,işlərin yerinə yetirilməsi və xidmətlərin göstərilməsi sahəsində 8420.3 min manatlıq iş görülmüşdür. Onlardan 1392.5 min manat mülki təyinatlı inşaat işləri, 7037.8min manatı isə ixtisaslaşdırılmış tikinti işləri olmuşdur. Tikinti təşkilatlarında 110 nəfər fəhlə və qulluqçular çalışırlar. Bunlara 2021-ci ilin 12 ayında 597907 manat əmək haqqı verilmişdir. 2021-ci ildə hər işçinin orta aylıq əmək haqqı isə 417.8 manat olmaqla əvvəlki ilə nisbətən 0.8 manat azalmışdır.

Lerik Aqrotikinti filialı 2021-ci il ərzində də heç bir fəaliyyət göstərməmişdir. 2021-ci il ərzində mərkəzləşdirilmiş qaydada nazirlik və müəssisələr üzrə əsas kapitala yönəldilmiş investisiyalar olmamışdır.

Fiziki şəxslərin investisiya qoyuluşu 1.8 milyon manat olmuşdur. Ayrı-ayrı vətəndaşlar tərəfindən 2021-ci ildə dəyəri 579.6 min manat olmaqla 19 ədəd şəxsi evlər tikilmişdir.

İstehlak bazarının müxtəlif çeşidli əmtəə ehtiyyatları ilə tam və dolğun təmin olunması, əhalinin pul gəlirlərinin yüksəldməsi nəticəsində alıcılıq qabiliyyətinin artması pərakəndə əmtəə dövriyyəsinin və əhaliyyə göstərilən pullu xidmətlərin həcminin getdikcə artmasına öz müsbət təsirini göstərir.

Pərakəndə ticarət və iaşə xidməti dövriyyəsinin, əhaliyyə göstərilən pullu xidmətlərin real artmasının demək olar ki, hamısı özəl sektorun hesabına təmin edilmişdir.

2021-ci ildə özəl sektorun müəssisələri tərəfindən əhaliyyə 103741.9 min manatlıq istehlak malları satılmış və müxtəlif növ xidmət göstərilmişdir.

YENİ İŞ YERLƏRİNİN AÇILMASI

2021-ci ilin oktyabr ayının 1-i vəziyyətinə rayon üzrə iqtisadi fəal əhali 43373 nəfər, məşğul əhali 40606 nəfər, işsiz əhali isə 2767 nəfər olmuşdur. 2021-ci ilin on bir ayında muzdla işləyənlərin sayı 5303 nəfər olmuşdur.

Respublika Prezidentinin məlum fərmanına əsasən regionlarda, o cümlədən də rayonumuzda müxtəlif xidmət sahələrinə əhalinin aztəminatlı təbəqəsindən olanlar ictimai işlərə cəlb edilmişdir. Təkcə 2021-ci ilin 12 ayı ərzində 1135 iş yeri açılmışdır ki, bunlar da əsasən fiziki şəxslərdə olan yeni iş yerləridir. Yeni açılmış iş yerlərində, xüsusi ilə təmir-tikinti, abadlıq işlərində, yol çəkilişi, qaz çəkilişi sahəsində işləyənlər yüksək məbləğdə əmək haqqı alırlar.

01 yanvar 2010-ci ildən «Bir pəncərə» sistemi yarandıqdan sonra sahibkarların sayı o cümlədən fiziki şəxslərin sayı daha çox olmuş və bunlar da öz növbəsində yeni iş yerinin açılması deməkdir

Nizaməddin Muradov,
Lerik rayon Statistika idarəsinin rəisi

Heyvandarlıq mütərəqqi üsullarla inkişaf etfdirilməlidir

Ölkə iqtisadiyyatının qeyri-neft sektorundakı asılılığını minimuma endirmək; kənd təsərrüfatının ildən-ilə artımına nail olmaq, ərzaq təhlükəsizliyini təmin etmək qarşıda duran prioritet vəzifələrdən biridir. Ölkədə ərzaq sektorunun, xüsusi ilə də heyvandarlığın inkişafı, daha böyük məhsuldarlıq əldə etmək üçün Kənd Təsərrüfatı Nazirliyi təxirəsalınmaz tərbirlər həyata keçirir. Kənd Təsərrüfatı Naziri İnam Kərimov sahibkarlıq subyektləri ilə əlaqələrə üstünlük verir, bölgələrə mütəmadi olaraq səfərlər edir, sahibkarlarla görüşlər təşkil edir. Ortaya çıxa biləcək problemlərin vaxtında aradan qaldırılmasını məqsədəuyğun hesab edir. Kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair "Strateji Yolm Xəritəsi"nin həyata keçirilməsi hesabına ölkədə dayanıqlı inkişaf prinsiplərinə əsaslanmaqla, rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı və emal sektorunun formalaşdırılmasına nail olmaq baxımından əlverişli mühitin yaradılması vacibdir.

Bu gün dünyanın hər yerində olduğu kimi, ölkəmizdə də ət istehsalına və istehlakçılara çatdırılmasına tələbat artmaqda davam edir. BMT-nin Ərzaq və kənd təsərrüfatı təşkilatının (FAO) məlumatına görə, dünyada ət istehsalı xeyli artacaqdır. Buna görə də heyvandarlıq mütərəqqi texnologiyalarla, ən müasir üsullarla inkişaf etdirilməlidir.

Müasir dünya təcrübəsi aqrar sektorunun səmərəli inkişaf etdirilməsində nümunə ola bilər. Məsələn, Niderlandda torpaq sahələri çox olmasa da, hər fermer 100 nəfəri ərzaq məhsulları ilə təmin edir. Ekoloji təmiz məhsul istehsalına üstünlük verilir, mal-qaranın elitb növləri yetirşdirilir. Aqrar sektor qibtə ediləcək dərəcədə mexanikləşdirilib. Kənd təsərrüfatında işləmək üçün yüksək bilikli mütəxəssislər yetişdirilir.

Bu gün heyvandarlıqda əsas antəhsal texnologiyasını inkişaf etdirməklə, radionların və yemləmə sistemlərinin təkmilləşdirilməsi ilə yanalayış səmərəlilikdir. Yüksək reproduktiv keyfiyyətlərə və məhsuldar istifadənin uzunmüddətli olmasına, məhsuldarlığın erkən başlanğıcı və yüksək səviyyədə davamlı qorunmaq bacarığına, yüksək keyfiyyətli və dəyərli qida məhsulları istehsalına nail olmağa, güclü immun sisteminə və sağlamlığa uyğunlaşmaq, qida maddələrindən və yem enerjisindən səmərəli istifadə etmək səmərəliliyin əsasını təşkil edir.

Müasir heyvan növlərindəki genetik potensialı daha effektiv şəkildə həyata keçirmək üçün, saxlanma və istehsal texnologiyasını inkişaf etdirməklə, radionların və yemləmə sistemlərinin təkmilləşdirilməsi ilə yanaşı, baytarlıq və profilaktika üsulları, optimal peyvənd proqramları və dərman vasitələrinin müalicəsi, yem əlavələrinin tətbiqi ilə yemlərin həcməfediciliyinin artırılması üsuları aktiv şəkildə inkişaf etdirilməlidir.

Əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsi üçün mütərəqqi yetişdirmə üsullarının xüsusi ilə də biotexnoloji üsulların tətbiqi, yüksək seleksiya və damazlıq işlərinin həyata keçirilməsi alim və mütəxəssislər üçün vacib məsələdir. Avropa ölkələrində tez yetişən, ağırçəkili, yüksək ət çıxarına və yağsız ətə malik qoyun cinslərinin yaradılmasına nail olan tələbatının bir hissəsinin ödənilməsində önəmli yer tutur.

Azərbaycan Respublikasında bölgələr üzrə müxtəlif genefondlar əsasında heyvandarlığın inkişaf etdirilməsi çox vacibdir. Ekoloji təmiz məhsulun alınması üçün ekoloji bitkilərdən istifadə edərək, qidalanan, ağır ektremal iqlim şəraitinə uyğunlaşı dözə bilən, xəstəliklərə tutulmayan heyvanların yetişdirilməsi çox vacibdir. - Mövcud resurslardan istifadə etməklə dözümlü, yeni heyvan tipləri vasitəsilə məhsuldarlığı yüksəltmək mümkündür.

Mirzaid Qurbanov,
Lerik Rayon DAİMİN Bitkiçilik və Heyvandarlıq Sektorunun baş məsləhətçisi

Stalinin vəsiyyəti

Mən öləndən sonra qəbrimin üstünə çox zir-zibil atacaqlar, amma vaxt gələcək, zamanın küləyi o zir-zibili təmizləyəcək.

Mən heç vaxt əsl inqilabçı olmamışam, bütün həyatım yəhudi burjuasının başçılığı altında yeni dünya düzəni qurmaq istəyən sionizmlə yorulmaz mübarizədə keçib... Buna nail olmaq üçün onlar SSR-ni, Rusiyanı süquta uğratmaq, inancı məhv eləmək, rus xalqının səltənətini öz milliyyətindən xəbərsiz kosmopolitlərə çevirmək istəyir.

Onların planlarına ancaq imperiya qarşı qoya bilər. İmperiya olmasa, Rusiya da, Dünya da məhv olacaq. Utopiyaya son qoymaq lazımdır. Monarxiyadan yaxşı heç bir dövlət quruluşu tapmaq mümkün deyil, deməli heç lazım da deyil. Mən həmişə rus çarlarının dahiliyi və böyüklüyü qarşısına baş əymişəm.

Hakımi-mütləqlə heç yana çıxmaq mümkün deyil. Ancaq gərək diktator gərək hökmdarla əvəz olunsun. Zamanı gələndə. Yer üzündə hamınızın bir yerdə ola biləcəyiniz yeganə yer Rusiyadır. İslahatlar qaçılmazdır, amma öz vaxtında. Və bu mənəvi, inqilabi, ənənələrə söykənən, Pravoslav özünüdərkin tədricən bərpası prinsiplərinə söykənən islahatlar olmalıdır. Onların əsasında isə realizm və sağlam düşüncə dayanır.

Tezliklə torpaq parçaları uğrunda müharibə, resurlslar və enerji uğrunda "soyuq müharibə" ilə əvəz olunacaq. Buna hazır olmaq lazımdır. Yeni növ enerjiyə yiyələnmək bizim alimlərimizə üçün ən mühüm sahə olmalıdır. Onların uğuru bizim gələcək azadlığımızın qarantıdır. Ordu ancaq xalqın və hökümətin sevgisi ilə əhatə olunanda güclü ola bilər. Ordunun böyük mənəvi gücü də məhz bundadır. Ordunu sevmək və ona qayğı göstərmək lazımdır!

Mən tək başınayam. Rusiya çox böyük ölkədir, ətrafda isə bir nəfər də düz-əməlli adam yoxdur... Yaşlı nəsil xirtdəyəcən sionizmə yoluxublar, bütün ümidlərimiz gənclərədir. İnternasional qüvvələrə qarşı yeni səlib yürüşü elan etmək vaxtıdır, bu yürüşə isə ancaq yeni Rus Ordeni başçılıq edəcək. Bir an öncə onu yaratmalıyıq. Yadda saxlayın, dünyaya güclü Rusiya lazım deyil, heç kim bizə kömək etməyəcək, ancaq öz gücümüzə arxalanmalıyıq. Mən əlimdən gələni etdim, ümidvaram siz daha çoxunu və daha yaxşısını edəcəksiniz. Böyük əjdadlarımızın xatirəsi qarşısında ləyaqətli olun.



Sarımsaq - həyat iksiri

Hətta yapon alimi Katudzo Nişinin sağlamlıq qaydalarında da sarımsaq həyat iksiri kimi təqdim edilir. Bu günlərdə türk alimi Yılmaz da bu mövzuya qayıdıb. O, sarımsağın pis qoxusunu dəf etməyin yollarını açıb. Çünki əslində çoxları sarımsağı məhz bu qoxusuna görə yeməkdən qorxur.

Doktor Yılmaz isə deyir ki, sarımsağın iyini dəf etmək üçün ondan hazırlanan qarışığı 6 ay gözləmək gərəkdir: "Sarımsağı özəl qaydada hazırladıqdan sonra ən azı 6 ay gözləmək gərəkdir. Bu zaman möcüzəli, tam qoxusuz bir qarışıq görəcəksiz. İngiliscə "Aged Garlic Extraet" adlanan iksir (qısaca "AGE") əsl can dərmanıdır. Doktor daha sonra AGE-nin faydalarından danışır. Bəzən adi halda yeyilən sarımsaq mədə göynəməsinə səbəb olur. 6 aylıq qarışıq isə qətuyyən ağrıtmır. Eyni zamanda AGE qaraciyər, mədə-mağırsaq sistemini gül kimi təizləyir.



AGE-nin hazırlanması isə çox da çətin proses deyil. Belə ki, 1 kilo sarımsağı soyub, möhkəmcə əzirsən. Sonra əzilmiş sarımsağı bir qabın içinə qoyub, üstünə 1 litr su, 5 ədəd də limon sıxaraq qarışdırırsan. Bu qarışığın içinə 1 litr də sirkə əlavə edirsən. Daha yaxşı nəticə əldə etmək üçün alma sirkəsi tökməniz məsləhətdir. Bunlar qarışırıldıqdan sonra hazır qarışığı şüşə qaba yığıb, ağzını möhkəm bağlayırsız. Bankanı 6 və ya 10 ay ərzində sərin və qaranlıq yerdə saxlayırsız. 10 və ya 6 aydan sonra sarımsaq qarışığını götürüb hər gün səhər bir xörək qaşığı acqarına yeyirsiz. Qeyd edək ki, bu həyat iksirinin heç bir tünd qoxusu olmur. Əksinə, hazır AGE çox dadlı olur.

Maraqlı məlumatlar

Şahmatda şah niyə passivdir?

Çünki adından da bilindiyi kimi piyadalar, atlar şahı qoruyarkən, vəzir şahın ən böyük dəstəkçisi olur. Belə ki, vəzir qabağa, arxaya və çarpaz oynaya bilir. Qərbdə vəzirin yerinə kraliça deyirlər. Bu da kraliçanın öz canı bahasına belə kralı qoruduğuna işarədir. Şahmat isə altıncı əsrdə hindular tərəfindən oynanılmış və daha sonra dünyaya tanıdılmış bir oyundur.



Bir həftə niyə 7 gündür?

Babillər 7 günlük həftədən zaman vahidi kimi istifadə edirdilər. Keçmiş vaxtlarda 5 planetin kəşf edilməsi və günəş ilə ayın ümumi cəmi 7 gün olması qəbul olunmuşdur. Daha sonra dinlərdə göyün 7 qurşağı olması və əlaqədar bunun belə olması bilindi. Sonralar isə musiqi notlarının da sayının 7 olması 1 həftənin 7 gün qalması şərtini gücləndirdi. Əbəs yerə 7 rəqəmi müqəddəs rəqəm hesab olunmur. Amma sonralar fransızlar 1 həftəni 10 gün, ruslar isə 5 gün etmək istəsələr də bu qəbul olunmadı. Ona görə də hal-hazırda hər yerdə 1 həftəlik 7 günə bərabərdir.

Süfrəniz üçün yaşıl möcüzə

Kivinin sirlərinə bələd olduqca ona doğrudan da yaşıl möcüzə deyəcəksiniz. Kivinin içində olan vitaminlər üz dərisini qocaldan bakteriyaları öldürür, dəri səthini təmizləyir və üz dərisini canlandırır.

Qış aylarının turş meyvəsi olan kivi üzünüzün dərisini cavanlaşdırmaq üçün ən yaxşı vasitədir. Çox yetişməmiş bir kivinin qabığını soyduqdan sonra iti bıçaqla incə bilimlərə ayırın. Arxası üstə uzanıb bu dilimləri süfrənizə düzün və 15-20 dəqiqə gözləyin. Bu, üz dərinizi inanılmaz şəkildə canlandıracaq. Bundan başqa, kivinin qabığını soyuduqdan sonra onu mikserlə möhkəm çalın. Alınmış mayeni ikiqat tənzifə hopduraraq sifətinizə qoyun. Bir-neçə dəfə təkrarlamaqla bu əməliyyatı 10 dəqiqə davam etdirin.



Hitlerin "uçan boşqablar"ı niyə uçmadı?

Faşistlərin "intiqam silahı"nı tətbiq etmələrinə sovet qoşunlarının zərbələri olub.

"The Daily Mail"ə istinadən bildirir ki, II Dünya müharibəsinin sonuna yaxın faşist Almaniyası Şərqi Avropa və Şimali Afrikada məğlubiyyətlərə düçar olmağa başlayanda Berlində çıxış yolu axtarışlarına başlanmışdı.

Adolf Hitlerin birbaşa tapşırıqlarından sonra nasist Almaniyasının hərbi-sənaye kompleksi "Fau-2" raketləri və reaktiv təyyarələrin istehsalına başlamaq niyyətində olsa da, müttəfiq qoşunlarının zərbələrinin qarşısını almaq üçün artıq çox gecdi.

Digər layihələr isə, Hitler demişkən, "biabırçı dərəcədə ambisioz və axmaqdı".

Bununla belə, faşist alimlərin hazırladıqları "intiqam silahları" arasında "uçan boşqab" adlanan reaktiv uçan qurğu da vardı.

Hitler bu "uçan boşqab" vasitəsilə Londonu, hətta Nyu-Yorku bombardman edərək viran qoymaq istəyirdi.

Aparılan araşdırmalar göstərir ki, II Dünya müharibəsinin son illərində alman faşistləri SS zabiti Hans Kamllerin rəhbərlik etdiyi qrupun tədqiqatları nəticəsində "uçan boşqab" məsələsində xeyli irəliləyişlərə nail olmuşdular.

Hətta toplar və böyük çaplı pulemyotlarla təchiz edilmiş bir neçə "uçan boşqab" hazırlanmış, onların sınaqları uğurla başa çatmışdı.

"Schriever-Habermohl" adlanan həmin layihənin düşünən beyni mühəndis və sınaqçı təyyarəçi Rudolf Şrayver ilə konstruktor Otto Habermoldu.

Layihədə çalışmış Yozef Andreas Eppin dediyinə görə, 15 "uçan boşqab" hazırlanmışdı.

Polyak tədqiqatçı Yozef Vitkovski isə bildirir ki, almanların bu "uçan boşqablar"dan istifadə edə bilməmələrinin yeganə səbəbi Sovetlər Birliyinin qoşunlarının hücumlarının intensivliyinin artması oldu.

Nəzarət-kassa aparatının tətbiqi haqqında

Hörmətli vergi ödəyicisi!

Məlum olduğu kimi Azərbaycan Respublikasının 03.12.2021-ci il tarixli 406-VIQD nömrəli Qanunu ilə (həmin Qanunla http://e-qanun.az/framework/48795 linki vasitəsilə tanış ola bilərsiniz) Vergi Məcəlləsinə bir sıra əlavə və dəyişikliklər edilmiş və 01.01.2022-ci il tarixdən qüvvəyə minmişdir.

Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərə əsasən nəzarət-kassa aparatının tətbiqi sahələri genişləndirilmişdir.

Belə ki, 01.01.2022-ci ildən etibarən pərakəndə ticarət və ictimai iaşə fəaliyyətləri ilə yanaşı aşağıda qeyd olunan fəaliyyət sahələri üzrə də pul hesablaşmaları İqtisadiyyat Nazirliyi tərəfindən müəyyən edilən meyarlara cavab verən və Dövlət Vergi Xidmətinin elektron informasiya sisteminə real vaxt rejimində qoşulmuş nəzarət-kassa aparatı vasitəsi ilə həyata keçirilməlidir;

mehmanxana (hotel) və mehmanxana tipli digər obyektlər;

tibb müəssisələri;

bərbərxanalar (bərbər fəaliyyətini fərdi qaydada "Sadələs?dirilmis? vergi üzrə

sabit məbləg?in, məcburi dövlət sosial sıg?orta və icbari tibbi sığorta haqqının ödənilməsi haqqında qəbz" almaqla həyata keçirən fiziki şəxslər istisna olmaqla);

gözəllik salonları;

kosmetoloji mərkəzlər.

Məlumat üçün onu da bildiririk ki, topdansatış ticarət fəaliyyətinin həyata keçirilməsi halı istisna olmaqla, vergi ödəyicisi kimi vergi orqanında uçotda olmayan şəxslərlə (əhali ilə) pul hesablaşmalarının aparılması qaydalarının pozulmasına, yəni nəzarət-kassa aparatları və ya ciddi hesabat blankları tətbiq edilmədən (nəzarət-kassa aparatları quraşdırılmadan, qanunvericiliklə müəyyən edilmiş formalara uyğun ciddi hesabat blankları olmadan və ya nağd ödənilmiş məbləği mədaxil etmədən), vergi orqanlarında qeydiyyatdan keçirilməmiş və ya texniki tələblərə cavab verməyən, o cümlədən bu Məcəllənin 50.8-ci maddəsində sadalanan tələblərə cavab verməyən çek təqdim edən nəzarət-kassa aparatlarından istifadə etməklə, qanunvericiliklə müəyyən olunmuş ciddi hesabat blanklarından istifadə etmədən və ya müəyyən olunmuş qaydada təsdiq olunmuş formalara uyğun olmayan ciddi hesabat blanklarından istifadə etməklə əhali ilə pul hesablaşmalarının aparılmasına görə vergi ödəyicisinə:

- təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə 1000 manat məbləğində;

- təqvim ili ərzində belə hallara ikinci dəfə yol verildikdə 3000 manat məbləğində;

- təqvim ili ərzində belə hallara üç və daha çox dəfə yol verildikdə 6000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

Yuxarıda qeyd olunanlar Vergi Məcəlləsinin 16.1.58-ci və 58.7-ci maddələri ilə tənzimlənir.

Nəzərinizə çatdıraq ki, Vergi Məcəlləsi və qanunvericiliyinə dair qüvvədə olan digər normativ hüquqi aktlar barədə məlumatları Dövlət Vergi Xidmətinin rəsmi internet səhifəsinin (www.taxes.gov.az) "Qanunvericilik" bölməsinin "Azərbaycan Respublikasının Vergi Məcəlləsi" və "Qanunvericilik aktları" alt bölməsindən, eyni zamanda hesabat formaları və onların tərtib edilməsi qaydaları barədə məlumatları qeyd edilən rəsmi internet səhifəsinin "Bəyannamə" bölməsinin "Bəyannamə və ərizə formaları arayış və hesabatlar" alt bölməsindən əldə edə bilərsiniz.

Vergi qanunvericiliyi və inzibatçılığı, sığorta haqlarının hesablanmasına və ödənilməsinə münasibətdə sosial sığorta, işsizlikdən sığorta və tibbi sığorta qanunvericilikləri ilə bağlı məlumat almaq üçün İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəsmi internet səhifəsinə (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195) və ya onlayn növbəyə yazılmaqla (https://www.e-taxes.gov.az/ebyn/novbe/#/) Sizə ən yaxın Vergi ödəyicilərinə xidmət mərkəzinə, eləcə də bütün digər Vergi ödəyicilərinə xidmət mərkəzlərinə (6 saylı Ərazi Vergilər Baş İdarəsinin inzibati binasında yerləşən vergi ödəyicilərinə xidmət mərkəzinə, ünvan:Lənkəran şəhəri, Z.Əliyeva 98a (iş günləri 09:00-dan 18:00-dək), Cəlilabad rayonu üzrə vergi ödəyicilərinə xidmət mərkəzinə, ünvan:Cəlilabad rayonu, H.Əliyev prospekti (iş günləri 09:00-dan 14:00-dək), Masallı rayonu üzrə vergi ödəyicilərinə xidmət mərkəzinə, ünvan:Masallı rayonu, Füzuli küçəsi (iş günləri 09:00-dan 14:00-dək), Biləsuvar rayonu üzrə vergi ödəyicilərinə xidmət mərkəzinə, ünvan:Biləsuvar rayonu, H.Əliyev prospekti (iş günləri 09:00-dan 14:00-dək), Astara rayonu üzrə vergi ödəyicilərinə xidmət mərkəzinə, ünvan:Astara rayonu, H.Əliyev küçəsi 34 (iş günləri 09:00-dan 14:00-dək), Lerik rayonu üzrə vergi ödəyicilərinə xidmət mərkəzinə, ünvan:Lerik rayonu, Nizami küçəsi 5 (iş günləri 09:00-dan 14:00-dək), Yardımlı rayonu üzrə vergi ödəyicilərinə xidmət mərkəzinə, ünvan:Yardımlı rayonu, H.Əliyev prospekti (iş günləri 09:00-dan 14:00-dək) müraciət edə bilərsiniz.

6 saylı Ərazi Vergilər Baş İdarəsi

Elan

Onlayn növbəyə yazılma və Onlayn növbənin ləğvi edilməsi elektron xidmətləri üzrə istifadəçi Təlimatın göndərilməsi haqqında

Hörmətli vergi ödəyiciləri!

12 may 2020-ci il tarixdən etibarən İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin vergi ödəyicilərinə xidmət mərkəzlərində vergi ödəyicilərinin qəbulu Xidmətin rəsmi internet saytı (www.taxes.gov.az) və İnternet Vergi İdarəsi (www.e-taxes.gov.az) vasitəsi ilə əvvəlcədən onlayn növbə əldə edilməklə həyata keçirilir.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin İnternet Vergi İdarəsində (https://www.e-taxes.gov.az/ebyn/novbe/) onlayn növbəyə yazılmaq imkanından vergi ödəyiciləri tərəfindən səmərəli istifadəsinin təmin edilməsi məqsədi ilə artıq növbəyə yazılmış şəxslər tərəfindən növbə vaxtlarının və tutulmuş növbələrin aid olduğu xidmət mərkəzlərinin dəyişdirilməsi imkanı yaradılmış və istifadəyə verilmişdir.

Aşağıdakı internet ünvanı (link) vasitəsi ilə onlayn növbəni əldə edə və ya öncədən tutulmuş növbəni dəyişə bilərsiniz:

Onlayn növbəyə yazılması və onlayn növbənin dəyişdirilməsi (link: https://www.e-taxes.gov.az/ebyn/novbe/#/).

Elektron xidmətlər üzrə istifadəçi təlimatı (link: https://www.e-taxes.gov.az/help/telimat/diger_telimatlar/TelimatOnlaynNovbe.pdf).

Onlayn növbəyə yazılmış şəxslər xidmət mərkəzinə yaxınlaşdıqda özləri ilə "Onlayn növbə üçün müraciətin təsdiqlənməsi barədə Bildiriş"i (elektron xidmətin sonunda ekranda əks olunan və (və ya) elektron poçt ünvanına göndərilən) və şəxsiyyət vəsiqələrini (Dövlət Miqrasiya Xidməti tərəfindən əcnəbi və vətəndaşlığı olmayan şəxslərə təqdim edilən daimi və ya müvəqqəti yaşamaq üçün icazə vəsiqəsi və ya qaçqın vəsiqəsini) mərkəzin məsul şəxsinə təqdim etməlidirlər.

Nəzərinizə çatdırırıq ki, tibbi maska olmadan xidmət mərkəzində qəbul həyata keçirilmir.

Əlavə olaraq bildiririk ki, dəfələrlə növbəyə yazılmış lakin xidmət mərkəzinə xidmət almaq üçün yaxınlaşmamış şəxslərin növbələrinin ləğv olunması məsələsinə baxıla bilər.

Yeni növ koronavirus infeksiyasının (COVİD-19) yayılmasının qarşısının alınması məqsədi ilə vergi ödəyicilərinə xidmət mərkəzlərinə yalnız zəruri hallarda, yəni əldə olunması nəzərdə tutulan xidmətin elektron analoqu olmadıqda müraciət etməyiniz xahiş olunur.

6 saylı Ərazi Vergilər Baş İdarəsi

Redaktor
İdris ŞÜKÜRLÜ

Təsisçilər:
Lerik Rayon İcra Hakimiyyəti və "Lerik" qəzetinin kollektivi
H/№AZ05AIIB33080019447400220174
VÖEN:6300050071

Lisenziya № V 280
İndeks 96935
Hər kəs öz imzasına cavabdehdir.
Əlyazmalar geri qaytarılmır

Redaksiyanın ünvanı:
Lerik şəhəri,
Həzi Aslanov küçəsi, 1
Tel: (070) 200-21-54

Qəzet "Son Dakika" MMS mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.

Sifariş: 178